RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 54 (8933) ŞƏNBƏ, 12 mart 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Regionda yeni konfiqurasiyanın müəllifləri

## Azərbaycan-Türkiyə strateji müttəfiqliyi Avrasiya bölgəsində təhlükəsizliyin təmin olunmasına yönəlib

**Prezident İlham Əliyevin martın 10-da Türkiyəyə etdiyi işgüzar səfər ilk növbədə ondan xəbər verdi ki, iki dövlət arasındakı münasibətlər ortaq milli-mədəni dəyərlərlə yanaşı, həm də müttəfiqliyə əsaslanaraq sürətlə inkişaf edir.**

Bu müttəfiqlik isə tarixi sınaqlardan keçərək sarsılmaz qardaşlığa və dostluğa söykənir. Təsadüfi deyil ki, Azərbaycan-Türkiyə münasibətlərinin səviyyəsi beynəlxalq münasibətlərin nadir hadisəsidir.

### Türkiyədən verilən mesaj

Azərbaycan-Türkiyə münasibətləri ötən ilin 44 günlük Vətən müharibəsi zamanı özünün tarixi sınağından layiqincə çıxaraq daha da möhkəmləndi. Xalqımızın möhtəşəm qələbəsi ilə başa çatan bu savaş Azərbaycan və Türkiyəni bir-birinə daha da yaxınlaşdırdı, əlaqələri daha da gücləndirdi. Bu müharibədə Türkiyənin siyasi-hərbi rəhbərliyi ilk gündən birmənalı şəkildə Azərbaycanın yanında oldu, ölkəmizin haqlı mövqeyini, ərazi bütövlüyünü qətiyyətlə müdafiə etdi.

*Ardı 2-ci səh.*

## Azərbaycan-İran münasibətləri qarşılıqlı hörmət və mehriban qonşuluğa əsaslanır

**İran İslam Respublikasının Prezidenti zati-aliləri cənab Seyid İbrahim Rəisiyə**



Hörmətli cənab Prezident!

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında əlamətdar tarix - diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə Sizi səmimiyyətlə təbrik edir, dost və qardaş İran xalqına ən xoş arzularımı çatdırıram.

Dini və mədəni köklərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsi qarşılıqlı hörmət və mehriban qonşuluğa əsaslanan Azərbaycan-İran münasibətlərinin əsas təməlini təşkil edir. Dostluq əlaqələrimizin bugünkü yüksək səviyyəsi otuz illik dövrdə ölkələrimizin birgə fəaliyyətinin nəticəsidir. Bu illər ərzində çoxsaylı qarşılıqlı səfərlər, imzalanan sənədlər, əldə edilən razılaşmalar və həyata keçirilən birgə layihələr siyasi, iqtisadi, nəqliyyat, enerji, mədəni və digər sahələrdə əməkdaşlığımızın dinamik inkişafında mühüm rol oynamışdır.

Mən Azərbaycan ilə İran arasındakı müntəzəm siyasi dialoqu və bir sıra sahələrdəki işbirliyimizi yüksək qiymətləndirirəm. Hesab edirəm ki, bu gün qarşılıqlı faydalı əməkdaşlığımızın daha da inkişaf etdirilməsi üçün böyük perspektivlər vardır. Şübhəsiz, tarixi, əzəli torpaqlarımızın işğaldan azad olunması nəticəsində Azərbaycan-İran dövlət sərhədinin bərpası müxtəlif sahələrdəki mövcud potensialdan tam şəkildə yararlanmağa, nəqliyyat-kommunikasiya dəhlizlərinin gerçəkləşdirilməsində birgə iştiraka əlverişli şərait yaratmışdır. Bu baxımdan Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun əhəmiyyətini xüsusi qeyd etmək istəyirəm.

Hazırda işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı yenidənqurma və bərpa işləri aparılır. Biz ölkənizi təmsil edən şirkətlərin də yaxın gələcəkdə bu prosesdə iştirakını görməkdən məmnun olardıq.

İnanıram ki, xalqlarımızın mənafelərinə və ölkələrimizin maraqlarına xidmət edən Azərbaycan-İran münasibətləri bundan sonra da birgə səylərimizlə uğurla inkişaf edəcək və möhkəmlənəcəkdir.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost və qardaş İran xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2022-ci il*

## Yeni nəqliyyat yolunun işə salınması istiqamətində mühüm addımlar atılır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nazir və Dövlət Komissiyasının həmsədri Rüstəm Qasimi İran Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlətimizin başçısına çatdırdı.

*Ardı 2-ci səh.*

## Azərbaycan-Gürcüstan əlaqələri uğurla inkişaf edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Gürcüstanın ədliyyə naziri Rati Breqadzenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Gürcüstan arasında dostluq əlaqələrinin müxtəlif istiqamətlərdə, o cümlədən nəqliyyat, enerji, ticarət sahələrində uğurla inkişaf etdiyi bildirildi.

Söhbət zamanı Azərbaycanın və Gürcüstanın Ədliyyə nazirlikləri arasında təcrübə mübadiləsinin aparılmasının əhəmiyyətinə toxunuldu.

Rati Breqadzenin ölkəmizə səfərinin və səfər çərçivəsində nazirliklər arasında imzalanan Əməkdaşlıq Memorandumunun bu sahədə əlaqələrin genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

## Yalan və böhtana əsaslanan ədalətsiz fəaliyyət

### Avropa Parlamenti özünü erməni maraqlarının yuvasına çevirdiyini bir daha təsdiqlədi

**Son vaxtlar Avropa qurumlarının Azərbaycana yönəlik ədalətsiz fəaliyyəti səngimək bilmir. Bunlar gah ATƏT-in Minsk qrupunun bərpası məsələsini, gah da Qarabağda, guya, erməni mədəni abidələrinin "təhlükə" altında olduğunu qabardıb yenə də ikili standartlar prinsiplərini nümayiş etdirirlər. Bu sırada isə Avropa Parlamentinin "canfəşanlığı" daha çox diqqət çəkir.**

İkinci Qarabağ müharibəsindən sonra artıq ikinci dəfədir ki, bu təşkilat Azərbaycana qarşı qərəzli mövqe sərgiləyir. Hələ Vətən müharibəsindən az sonra AP Azərbaycan və Türkiyəni ittiham edən qərəzli qətnamə qəbul etmişdi. Həmin kağız parçasında Azərbaycanın savaşın getdiyi günlərdə guya Suriyadan olan muzdluların yardımından yararlandığı qeyd edilir, bununla bərabər, müharibədən sonra ordumuz tərəfindən zərərsizləşdirilən erməni diversantlarının qeyd-şərtsiz azad edilməsi tələbi irəli sürülürdü. Amma tarixi faktlar hər şeyi üzə çıxardı.

*Ardı 6-cı səh.*

## Əhalinin sosial müdafiəsinin əsas istiqaməti: yeni iş yerlərinin yaradılması

**18 il əvvəl regionların sosial-iqtisadi inkişafına yönəldilən I Dövlət Proqramının icrasına start veriləndən üzübəri həyata keçirilən ardıcıl tədbirlər nəticəsində ölkədə çoxsaylı iş yerləri açılıb. Buna, ilk növbədə qeyri neft-qaz sektorunun getdikcə irəliləməsi, iqtisadiyyatın diversifikasiyası və prioritet sahələrə irihəcmli investisiyaların yatırılması sayəsində yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması zəmin yaradıb.**

Artıq iki ildən çoxdur dünyada tüğyan edən koronavirus pandemiyası şəraitində də Azərbaycan dövləti bu istiqamətdə fəaliyyətini zəiflətmədi. Ümumiyyətlə, koronavirusun sosial-iqtisadi sahəyə vurduğu ziyanın minimum olması üçün hələ pandemiyanın əvvəlindən ölkədə genişmiqyaslı qabaqlayıcı tədbirlər görüldü. İqtisadi inkişafın təmin olunması üçün bir sıra əsaslı proqramlar işlənib hazırlandı və onlar həyata keçirilməkdə davam edir.

*Ardı 2-ci səh.*

## Müzəffər Komandanın qəhrəman əsgərləri



### Daxili Qoşunlar "Dəmir yumruğ"un əsas zərbə güclərindən biridir

**Birinci Qarabağ müharibəsi...**

**Yeni yaradılan, cəmi 40 gün öncə and içərək hərbi xidmətə başlayan cəsur igidlər Ağdam istiqamətindən döyüşə atıldılar, Ağdərədən Qubadlıya, Kəlbəcərdən Zəngilanadək savaşın getdiyi bütün ərazilərdə şərəflə döyüşdülər... Sıralarından 680 qəhrəmanı şəhid verdilər...**

**İkinci Qarabağ müharibəsi...**

**Vətən savaşının ilk dəqiqələrindən silaha sarıldılar, 44 gün ərzində erməni işğalçılarının başını əzdilər, belini qırdılar, Şuşada ucaltdıqları bayrağın timsalında örnək qəhrəmanlıq nümunələri yaratdılar... 66 şəhidlə ölməzlik dastanı yazdılar... Tarixi Zəfər paradında Müzəffər Ali Baş Komandanın önündən keçərək qələbə raportunu verdilər, həm də böyük himayədarları olan Ulu Öndər Heydər Əliyevin ruhu qarşısında daşıdıqları borcu ləyaqətlə ödədilər...**

Onlar Azərbaycanın savaş qəhrəmanlarıdır, dövlətçiliyimizə qarşı qəsdləri zərərsizləşdirən vətənpərvərlərdir, ictimai asayişin təminində canlarından keçən igidlərdir...

Onlar şanlı Daxili İşlər Nazirliyimizin fədakar Daxili Qoşunlarıdır...

### Vətənin etibarlı keşiyində

Bu gün onların günüdür... Birinci Qarabağ müharibəsində hərbi əməliyyatlara başladıqları ilk tarix onlar üçün Ümummilli Lider tərəfindən belə əbədiləşdirilib... Və ötən dövrün elə hər günü də onlar üçün məhz belə qəhrəmanlıqla, hərbi andın layiqincə doğrulması ilə keçib...

Əslində, Daxili Qoşunların ölkəmizdə fəaliyyəti başqa adlar və fərqli xidmət məramları ilə əvvəlki dövrlərdə də mövcud olub. Daxili Qoşunların təyinatına uyğun olan vəzifələri yerinə yetirmiş hərbi qurum ilk dəfə Xalq Cümhuriyyəti dövründə yaradılıb. Parlamentin müvafiq qərarına uyğun olaraq, əhalini hərbi işlə tanış etmək, yaşayış məntəqələrində asayişin mühafizəsi məqsədilə 1919-cu il iyunun 1-dən etibarən könüllü əsgərlərdən ibarət dəstə formalaşdırılıb. 1920-ci il martın 27-də isə Xalq Cümhuriyyətinin Dövlət Müdafiə Komitəsinin qərarı əsasında Bakı təşkilatının Yardım alayının könüllü dəstələri Daxili İşlər Nazirliyinin sərəncamına verilib.

*Ardı 5-ci səh.*

# Yeni nəqliyyat yolunun işə salınması istiqamətində mühüm addımlar atılır

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev İranın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Seyid İbrahim Rəisiyə çatdırmağı xahiş etdi.

Görüşdə bölgədə yaranmış yeni reallıqların əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığı qeyd edildi. Xüsusilə nəqliyyat sahəsində bu gün imzalanacaq Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun önəmi vurğulandı. Bu, dostluq əlaqələrimizin təzahürü kimi dəyərləndirildi və onun imzalanmasının yeni nəqliyyat yollarının açılmasına xidmət edəcəyinə əminlik ifadə olundu. Yeni dəhlizin həm nəqliyyat, həm də elektrik enerjisi üçün önəmli bir beynəlxalq dəhliz olacağı qeyd edildi. Vurğulandı ki, bu gün "Şimal-Cənub" Nəqliyyat Dəhlizinin bir qolu olacaq yeni nəqliyyat yolunun işə salınması istiqamətində çox mühüm addımlar atılır və bu, həm Şərq-Qərb, həm də Şimal-Cənub istiqamətlərində əməkdaşlıq üçün gözəl zəmin yaradacaq.

Görüşdə İran şirkətlərinin işğaldan azad edilmiş ərazilərdə işə başlamalarından məmnunluq ifadə olundu.

Söhbət zamanı Azərbaycan və İran arasında nəqliyyat sahəsində ikitərəfli əməkdaşlığın həm ölkələrimiz, həm bölgə üçün, həm də beynəlxalq səviyyədə önəmi bildirildi. Bu baxımdan aviareyslərin həyata keçirilməsinin əhəmiyyəti vurğulandı.

## "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 16, maddə 694; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddələr 171, 226, № 4, maddə 287; 1998, № 1, maddə 16; 2001, № 12, maddə 736; 2002, № 6, maddə 328, № 12, maddə 692; 2003, № 1, maddə 16; 2005, № 8, maddə 684; 2009, № 5, maddə 314, № 7, maddələr 512, 517; 2011, № 2, maddə 71, № 7, maddə 604; 2013, № 3, maddə 217, № 4, maddə 355; 2015, № 4, maddələr 364, 367, № 11, maddə 1257, № 12, maddə 1443; 2016, № 12, maddə 1985; 2017, № 6, maddə 1047; 2020, № 7, maddə 826; 2021, № 6 (I kitab), maddə 545) aşağıdakı dəyişikliklər edilsin:

1.8-ci maddə üzrə:

1.1. ikinci hissədə "təşkilat məsələlərində" sözləri "dini məsələlərdə" sözləri ilə əvəz edilsin;

1.2. üçüncü hissə üzrə:

1.2.1. birinci cümlədə "rəhbərlik edən din xadimləri müvafiq icra hakimiyyəti orqanına məlumat verilməklə Qafqaz Müsəlmanları İdarəsi" sözləri "din xadimləri Qafqaz Müsəlmanları İdarəsinə məlumat verilməklə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

1.2.2. ikinci cümlədə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nümayəndəsinin" sözləri "Qafqaz Müsəlmanları İdarəsinin nümayəndələrinin və mütəxəssislərin" sözləri ilə əvəz edilsin;

1.3.yeddinci hissə ləğv edilsin.

2. 9-1.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"9-1.4. Dini qurumun hüquqi ünvanı dəyişdikdə bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) 10 (on) gün müddətində məlumat verir.".

3. 11.3-cü maddə ləğv edilsin.

4. 12-ci maddə üzrə:

4.1. birinci hissənin ikinci cümləsində "qurumlar" sözü "icmalar" sözü ilə, "qurumlara dini mərkəz və idarələr tərəfindən" sözləri "icmalara bu Qanunla müəyyən olunmuş qayda" sözləri ilə əvəz edilsin və həmin cümləyə "fəaliyyət" sözündən əvvəl "dini" sözü əlavə edilsin;

4.2. ikinci və üçüncü hissələr aşağıdakı redaksiyada verilsin:

"Dini qurumlar (dini icmalar bu maddənin üçüncü hissəsində nəzərdə tutulmuş sənədlər nəzərə alınmaqla) dövlət qeydiyyatına alınması üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təsis protokolu, nizamnaməsi, habelə "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş digər sənədlər əlavə olunmuş ərizə ilə müraciət edir.

Dini icmaların təqdim etdiyi ərizəyə onu təsis etmiş azı əlli nəfər yetkinlik yaşına çatmış şəxs və ya onların səlahiyyətli nümayəndələri, habelə vətəndaşlığı, yaşayış yeri və doğum tarixi göstərilməklə dini icmanı təsis edən şəxslərin siyahısı, şəxsiyyətlərini təsdiq edən sənədlərin surəti, dini təlimin əsasları, o cümlədən dini icmanın yaranması tarixi, onun fəaliyyətinin forma və metodları, ənənələri, ailəyə, nikaha və təhsilə münasibət, həmin icmanın üzvlərinin hüquq və vəzifələrinə qoyulan məhdudiyyətlər barədə məlumatlar əlavə edilir.";

4.3. beşinci hissədə "dini mərkəz və idarələrin vasitəsilə" sözləri "(bu Qanunun 9-1.4-cü maddəsi ilə müəyyən edilmiş hal nəzərə alınmaqla)" sözləri ilə əvəz edilsin.

5. 18-ci maddə üzrə:

5.1. dördüncü hissənin birinci cümləsinə "ianələri" sözündən sonra ", o cümlədən ianə edilmiş pul vəsaitlərini nağd və ya bank, poçt, plastik kart, elektron ödəmə sistemləri, yaxud internet vasitəsilə" sözləri əlavə edilsin;

5.2. ikinci və üçüncü cümlələr müvafiq olaraq üçüncü və dördüncü cümlələr hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İanə edilmiş pul vəsaitlərinin dini qurumlar tərəfindən qəbul edilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 fevral 2022-ci il*

## "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 488-VIQD nömrəli Qanununun tətbiqi və "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 29 may tarixli 97 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 488-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin üçüncü hissəsinin birinci cümləsində, 9-1.4-cü maddəsində, 12-ci maddəsinin ikinci hissəsində və 18-ci maddəsinin dördüncü hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 18-ci maddəsinin dördüncü hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 8-ci maddəsinin üçüncü hissəsinin birinci cümləsində, 9-1.4-cü maddəsində, 12-ci maddəsinin ikinci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinin dördüncü hissəsinin ikinci cümləsinə uyğun olaraq, ianə edilmiş pul vəsaitlərinin dini qurumlar tərəfindən qəbul edilməsi qaydasını iki ay müddətində təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 488-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 29 may tarixli 97 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 329; 2012, № 4, maddə 294; 2013, № 8, maddə 908; 2015, № 9, maddə 987; 2017, № 6, maddə 1097; 2019, № 5, maddə 840; 2021, № 6 (I kitab), maddə 578) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə "hissəsinin ikinci cümləsində" sözləri "hissəsinin birinci cümləsində" sözləri ilə, "maddəsinin ikinci cümləsində" sözləri "maddəsində, 12-ci maddəsinin ikinci hissəsində" sözləri ilə əvəz edilsin və həmin bəndə "beşinci hissəsində" sözlərindən sonra ", 18-ci maddəsinin dördüncü hissəsinin ikinci cümləsində" sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 2.1-2-ci bənd əlavə edilsin:

"2.1-2. həmin Qanunun 18-ci maddəsinin dördüncü hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

3.3. 2.2-ci bənddən "8-ci maddəsinin üçüncü hissəsinin birinci cümləsində," və "ikinci hissəsinin üçüncü cümləsində, üçüncü," sözləri çıxarılsın;

3.4. 2.5-1-ci bənddə "hissəsinin ikinci cümləsində" sözləri "hissəsinin birinci cümləsində" sözləri ilə, "maddəsinin ikinci cümləsində" sözləri "maddəsində, 12-ci maddəsinin ikinci hissəsində" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2022-ci il*

# Səfir: "Azərbaycan və Qırğızıstan beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq edir və bir-birini dəstəkləyir"

Milli Məclisin Sədri Sahibə Qafarova martın 11-də Qırğız Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Kayrat Osmonaliyevlə görüşüb.



Sədr Sahibə Qafarova ölkələrimiz arasında çoxəsrlik tarixi köklərə malik dostluq və qardaşlıq əlaqələrinin mövcud olduğunu diqqətə çatdırıb. Xalqlarımızı ortaq köklərin, oxşar tarixin və ənənələrin birləşdirdiyini deyən Milli Məclisin sədri bildirib ki, ölkələrimiz müstəqilliklərini bərpa etdikdən sonra münasibətlərimiz yeni mərhələyə yüksəlib.

Gələn il Azərbaycan ilə Qırğızıstan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin tamam olacağını bildirən Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycan-Qırğızıstan əməkdaşlığı qarşılıqlı faydalı tərəfdaşlıq və dostluq münasibətlərinə söykənir, siyasi, ticari-iqtisadi, humanitar, mədəni və digər sahələrdə uğurla inkişaf edir. O, əlaqələrin inkişafında dövlət başçılarının qarşılıqlı səfərlərinin rolunu xüsusi vurğulayıb. Milli Məclis Sədrinin sözlərinə görə, yüksəksəviyyəli görüşlərin dinamikası, beynəlxalq və regional xarakterli bir çox aktual məsələlər üzrə mövqelərin qarşılıqlı dəstəklənməsi Azərbaycan ilə Qırğızıstan arasında münasibətlərin daha da möhkəmlənməsinə xidmət edir.

Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq etdiklərini diqqətə çatdıran Sahibə Qafarova Türk Şurası çərçivəsində münasibətləri xüsusi qeyd edib. Bildirilib ki, Azərbaycan və Qırğızıstan arasında əlaqələrin inkişafında parlamentlərarası əlaqələrin və qanunverici orqanların özünəməxsus rolu var. Parlamentlərimiz həm ikitərəfli, həm də çoxtərəfli formatda sıx əməkdaşlıq əlaqələrinə malikdirlər. Hər iki ölkənin parlamentlərində dostluq qrupları fəaliyyət göstərir və nümayəndə heyətlərimiz beynəlxalq platformalarda da uğurla əməkdaşlıq edirlər.

Milli Məclisin Sədri Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi böyük Qələbə haqqında məlumat verərək, bildirib ki, Azərbaycan Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan torpaqlarını azad edərək ərazi bütövlüyünü bərpa edib. Ermənistan ərazilərimizi işğal altında saxladığı müddətdə oradakı bütün maddi-mədəni sərvətlərimizi talan edib, şəhərlərimizi və kəndlərimizi dağıdıb. Diqqətə çatdırılıb ki, hazırda Azərbaycan işğaldan azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulması ilə bağlı genişmiqyaslı layihələr həyata keçirir və biz keçmiş məcburi köçkünləri maksimum qısa müddətdə öz əzəli torpaqlarına qaytarmaq üçün fəal iş aparırıq.

Görüşdə Qırğız Respublikasının ölkəmizdəki səfiri Kayrat Osmonaliyev səmimi qəbul üçün minnətdarlığını bildirərək, xalqlarımız arasında zəngin tarixə malik dostluq və qardaşlıq münasibətlərinin hazırda uğurla inkişaf etdiyini söyləyib. O deyib ki, ölkələrimiz beynəlxalq təşkilatlar, o cümlədən BMT, Şanxay Əməkdaşlıq Təşkilatı, MDB, ATƏT, Qoşulmama Hərəkatı çərçivəsində, Türk Şurası məkanında da fəal əməkdaşlıq edir və bir-birini dəstəkləyir. Səfir ölkəsinin Azərbaycanın ərazi bütövlüyünə hər zaman dəstək verdiyini də diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Regionda yeni konfiqurasiyanın müəllifləri

## Azərbaycan-Türkiyə strateji müttəfiqliyi Avrasiya bölgəsində təhlükəsizliyin təmin olunmasına yönəlib

*Əvvəli 1-ci səh.*

Ötən ilin iyun ayından isə Azərbaycan-Türkiyə münasibətlərinin tarixində məzmun və keyfiyyətcə yeni mərhələnin təməli qoyuldu. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri zamanı Şuşa şəhərində imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" iki dövlət arasındakı qardaşlığın və strateji tərəfdaşlığın siyasi və mənəvi təcəssümü oldu. "Biz, sözün əsl mənasında, müttəfiqik, qardaşıq və dünya miqyasında bizim əlaqələrimizə bənzəri olan əlaqələr yoxdur. Dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə canla, qanla bağlı olan ikinci ölkələr yoxdur. Bu, bizim böyük sərvətimizdir və bunu biz qoruyuruq, gücləndiririk, istənilən vəziyyətə hazırıq və hər zaman bir-birimizin yanındayıq", - deyə Prezident İlham Əliyev martın 5-də Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edərkən bildirib.

Ankarada İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın görüşündə də Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətlərinin müttəfiqlik əsasında daha da inkişaf etdiyi vurğulanıb, postmünaqişə dövründə Azərbaycan ilə Ermənistan arasında əlaqələrin normallaşdırılmasının perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin Zəngəzur dəhlizinin açılmasının, onun region üçün yaratdığı perspektivlərin, bu xüsusda Qars-Naxçıvan dəmir yolu xəttinin çəkilməsinin əhəmiyyəti qeyd olunub. Görüşdə Azərbaycan-Türkiyə müttəfiqlik əlaqələrinin inkişafından bir daha məmnunluq ifadə edilib.

Bütövlükdə, Prezident İlham Əliyevin Türkiyəyə səfəri dünyaya verilən yeni mesaj oldu. Bir daha göründü ki, Azərbaycanla Türkiyə öz münasibətlərini qardaşlıq və müttəfiqlik münasibətləri əsasında daha da möhkəmləndirir. Ölkələrimiz 44 günlük müharibədən sonra regionda yaranan yeni reallıqlarla əlaqədar ortaq maraqlarını qətiyyətlə reallaşdırırlar.

### Azərbaycan qlobal miqyasda daim sülhü müdafiə edib

Şuşa Bəyannaməsində də qeyd olunur ki, Azərbaycanla Türkiyə regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsi, eləcə də münaqişələrin, regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərirlər. Həmçinin aktual xarakter kəsb edən, qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək yaxın və ya üst-üstə düşən mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığı dərinləşdirəcəklər.

Azərbaycan və Türkiyənin öz münasibətlərində Şuşa Bəyannaməsində qeyd olunan bu prinsipləri rəhbər tutmaları bölgədə və yaxın coğrafiyalarda sülhün və təhlükəsizliyin təmin olunmasına xidmət edir. Hər iki dövlətin Ukraynada müharibənin dayandırılması ilə bağlı səyləri, bunun üçün nümayiş etdirdikləri ortaq mövqe də bunu təsdiqləyir. Təsadüfi deyil ki, Azərbaycan və Türkiyə prezidentlərinin görüşündə Ukraynadakı hadisələrlə də bağlı fikir mübadiləsi aparıldı, iki qardaş ölkənin müharibənin tezliklə dayandırılması istiqamətindəki səyləri yüksək qiymətləndirildi.

Ümumiyyətlə, Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri qlobal miqyasda sülhün müdafiəsidir. Respublikamız daim dünyada sülhyaratma prosesində fəal iştirak edib, bu istiqamətdə səmərəli təklif və təşəbbüslər irəli sürüb, öz praktiki fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verib. Azərbaycan regional konfliktlərin, qarşıdurmaların, gərginliyin aradan qaldırılması istiqamətində barışdırıcı missiya həyata keçirib. Respublikamız bir neçə il əvvəl BMT TŞ-yə üzvlüyü və sədrliyi dövründə də bu istiqamətdə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib, iki il ərzində dünyada sülh və təhlükəsizliyin təmin olunması istiqamətində səylərini davam etdirib.

Bütün bunların davamı kimi Azərbaycan regionda yeni əməkdaşlıq formatlarının təşəbbüskarı kimi çıxış edir. Hazırda region dövlətləri arasında mövcud olan çoxtərəfli əməkdaşlıq formatları buna əyani sübutdur.

Azərbaycanla Türkiyə arasında olan müttəfiqlik isə dövlətimizin bu istiqamətdə imkanlarını artırır, gücünə güc qatır. Bu baxımdan Azərbaycan-Türkiyə müttəfiqliyi iki qardaş ölkənin təhlükəsizliyini daha da gücləndirməklə yanaşı, həm də regionda sülhün təmin olunmasına yönəlib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Əhalinin sosial müdafiəsinin əsas istiqaməti: yeni iş yerlərinin yaradılması

*Əvvəli 1-ci səh.*

2021-ci ildə Azərbaycanda 69 min yeni iş yeri açılıb. Bu da onu göstərir ki, əhalinin məşğulluğunun təmin edilməsi dövlətin prioritetləri sırasında qalmaqdadır.

Yeni iş yerləri həm mövcud, həm də yeni yaradılmış və fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda açılıb. Bu müəssisə və təşkilatlarda onların payı müvafiq olaraq belədir: 87,2 faiz, 10,1 faiz və 0,6 faiz. Yeni iş yerlərinin qalan 2,1 faizi digər tədbirlər üzrə yaradılıb. Əhalinin işlə təminatının daim diqqət mərkəzində olmasını Dövlət Statistika Komitəsinin təqdim etdiyi bu rəqəmlər də təsdiqləyir. Həm də yeni iş yerlərinin yaradılması zamanı mütləq coğrafiya da nəzərə alınır. Belə ki, iş yerləri təkcə paytaxtda və iri şəhərlərdə deyil, bütün bölgələrdə açılır. Bu bölgünü göstərən rəqəmlər də maraq doğurur. Məsələn, keçənilki yeni iş yerlərinin 77,1 faizi Bakı şəhərinin payına düşsədə, 0,6 faizi Naxçıvan Muxtar Respublikasında, 22,3 faizi digər regionlarda yaradılıb. Regionlarda açılan iş yerlərinin 4,7 faizi Abşeron-Xızı, 3,8 faizi Gəncə-Daşkəsən, 2,3 faizi Lənkəran-Astara, 2,2 faizi Quba-Xaçmaz, 2 faizi Şəki-Zaqatala, 1,5 faizi Qazax-Tovuz, 1,4 faizi Şirvan-Salyan, 1,3 faizi Mərkəzi Aran, 1 faizi Qarabağ, 1 faizi Mil-Muğan, 0,8 faizi Dağlıq Şirvan, 0,3 faizi Şərqi Zəngəzur iqtisadi rayonlarındadır.

Yeni yaradılan iş yerləri iqtisadiyyatın və sosial sferanın müxtəlif sahələrini əhatə edir. Ötən il hüquqi şəxslərin yaratdıqları iş yerlərinin 21,7 faizi tikinti, 18,8 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 11,2 faizi emal sənayesi, 6,5 faizi peşə, elmi və texniki fəaliyyət üzrə açılıb. Açılan iş yerləri inzibati və yardımçı xidmətlərin göstərilməsi üzrə 5,8, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi üzrə 5,6, turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə 4,9, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə 4,6, təhsil üzrə 3,5 faiz təşkil edib. Qalan iş yerləri nəqliyyat və anbar təsərrüfatı, daşınmaz əmlakla əlaqədar əməliyyatlar və digər iqtisadi fəaliyyət növləri üzrə açılıb.

Qeyd edək ki, yeni iş yerlərinin 88,8 faizi qeyri-neft sektorunda yaradılıb. Bütün bunlarla yanaşı, ölkədə keçən il ərzində 11,6 min iş yeri bağlanıb. Bu da müəyyən müəssisə və təşkilatların fəaliyyətinin dayandırılması, bəzilərində isə ixtisarların aparılması ilə bağlı olub.

Bu il fevralın 1-i vəziyyətinə ölkədə iqtisadi fəal əhalinin sayı 5 milyon 304,3 min nəfər olub. Onlardan 4 milyon 988,5 min nəfərini məşğul əhali təşkil edib.

İlin əvvəlində müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin sayı 1 milyon 705,1 min nəfər olub. O cümlədən qtisadiyyatın dövlət sektorunda 904,7 min, qeyri-dövlət sektorunda 800,4 min nəfər çalışıb. Neft-qaz sektorunda 31,5 min, qeyri neft-qaz sektorunda isə 1673,6 min nəfər cəmləşib.

Əhalinin məşğulluğunun təmin olunması istiqamətində atılan uğurlu addımlardan biri ictimai iş yerlərinin yaradılmasıdır. Qeyd edək ki, pandemiya ilə bağlı vəziyyət ictimai iş yerlərinin sayının daha da artırılmasını gündəmə gətirib və bununla əlaqədar minlərlə ödənişli ictimai iş açılıb.

Özünüməşğulluq da vətəndaşlar üçün əlverişli qazanc formasıdır. Belə ki, hər ailənin öz büdcəsi olur, bunun sayəsində də insanlar müəyyən iş qura bilirlər. Əlbəttə, dövlətin köməyi ilə. Bu proqram insanların dolanışığını yaxşılaşdırmaqla yanaşı, iqtisadi inkişafa təkan verir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin həyata keçirdiyi özünüməşğulluq proqramı və proqramın genişlənməsinə dəstək olaraq Dünya Bankı ilə birgə reallaşdırılan "Azərbaycanda Məşğulluğa Dəstək" layihəsi üzrə aktivlərin paylanması işləri bu il də davam edir. Həmin işlər çərçivəsində ilin əvvəlindən paytaxt və regionlarda 766 nəfər işsiz və işaxtaran şəxsə mal və materiallar formasında aktivlər təqdim olunub. Onların bir çoxu şəhid ailələrinin üzvləri və müharibə iştirakçılarıdır. Verilmiş aktivlər hesabına bu insanlar müxtəlif iqtisadi fəaliyyət növləri üzrə kiçik bizneslərini yaradıblar.

Bir sözlə, Azərbaycanda əhalinin rifah halının daha da yaxşılaşdırılması üçün həyata keçirilən tədbirlər davamlı xarakter daşıyır. Bunların da mühüm bir hissəsini yeni iş yerlərinin açılması təşkil edir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# *Hikmət HACIYEV:* "Şərqi Zəngəzurla Naxçıvan arasında kommunikasiyaların yaradılması haqqında Anlaşma Memorandumunun imzalanması tarixi hadisədir"

"Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran ərazisindən keçməklə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun imzalanması tarixi hadisədir."



AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev qeyd edib ki, dünən Prezident İlham Əliyev İranın yol və şəhərsalma naziri, Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən yeni kommunikasiya bağlantısının nəqliyyat və elektrik enerjisi üçün önəmli beynəlxalq dəhliz olacağı xüsusi vurğulanıb.

"Dövlətimizin başçısı bu əhəmiyyətli nəqliyyat-kommunikasiya layihəsini daim diqqət mərkəzində saxlayır, onun icrası ilə əlaqədar aidiyyəti qurumlara tapşırıqlar verilir. Bu layihənin həyata keçirilməsi nəticəsində uzun illər ərzində Ermənistanın Naxçıvanı blokadada saxlanması siyasətinə son qoyulacaq. Azərbaycanın iki regionu - Şərqi Zəngəzur ilə Naxçıvan arasında İran ərazisindən keçməklə avtomobil, dəmir yolu, enerji və rabitə bağlantısı yaradılacaq", - deyə Prezidentin köməkçisi əlavə edib.

Bildirilib ki, bununla bərabər, layihə bütövlükdə regionun nəqliyyat-kommunikasiya mənzərəsini dəyişir, Azərbaycan, İran və Türkiyəni birləşdirərək Avrasiyada avtomobil, dəmir yolu, elektrik enerjisi xətti və rəqəmsal bağlantıların daxil olduğu yeni çoxtəyinatlı dəhlizin əsasını qoyur.

Qırx dörd günlük Vətən müharibəsi nəticəsində Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsinin, Prezident İlham Əliyev tərəfindən "dostluq sərhədi" adlandırılan Azərbaycan-İran sərhədinin ölkəmizə aid hissəsinə nəzarətin təmin edilməsinin bu nəqliyyat-rabitə layihəsinin həyata keçirilməsinə imkan yaratdığını vurğulayan Hikmət Hacıyev deyib: "Anlaşma Memorandumunun imzalanması Azərbaycan ilə İran arasında diplomatik əlaqələrin yaradılmasının 30 illiyinə təsadüf edir. Bu layihənin gerçəkləşməsində Azərbaycan ilə İran arasında 30 il ərzində qurulmuş dostluq, qarşılıqlı etimad və yaxın qonşuluq münasibətləri mühüm rol oynayır.

Əminik ki, yeni dəhliz regional əməkdaşlıq, inkişaf və region xalqlarının rifahı, iqtisadi-ticarət əlaqələrinin genişlənməsi üçün əlverişli imkanlar açacaq".

# Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının 15-ci iclası olub



Bakıda Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının 15-ci iclası keçirilib.






AZƏRTAC xəbər verir ki, martın 11-də Bakıda Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin və İran İslam Respublikasının yollar və şəhərsalma naziri Rüstəm Qasiminin həmsədrliyi və hər iki ölkənin aidiyyəti qurumlarının səlahiyyətli nümayəndələrinin iştirakı ilə Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının 15-ci iclası keçirilib.

Dövlət Komissiyasının iclasında iki ölkə arasında əlaqələrin dostluq, mehriban qonşuluq və ortaq mənəvi dəyərlər üzərində qurulduğu bildirilib.

Cari ildə diplomatik əlaqələrin qurulmasının 30 illiyini qeyd edən Azərbaycanla İran arasında ali siyasi dialoqun mövcud olduğu məmnunluqla vurğulanıb. Ötən ilin noyabrın 28-də Aşqabadda İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə İran Prezidenti Seyid İbrahim Rəisi arasında keçirilmiş görüş bunun təzahürü kimi qiymətləndirilib.

İki ölkənin müxtəlif sahələrdə, xüsusilə iqtisadiyyat, ticarət, sərmayə qoyuluşu, nəqliyyat-tranzit, sənaye, kənd təsərrüfatı və digər istiqamətlərdə uğurla əməkdaşlıq etdiyi diqqətə çatdırılıb.

2021-ci ildə qarşılıqlı ticarət dövriyyəsinin 30 faiz artdığı vurğulanıb, postpandemiya dövründə iqtisadi-ticari əməkdaşlığın əhatə dairəsinin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirilib.

Birgə sənaye-investisiya layihələrinin əhəmiyyəti qeyd edilərək müxtəlif sahələrdə müştərək istehsal müəssisələrinin yaradılması üçün perspektivlərin mövcud olduğu diqqətə çatdırılıb.

Nəqliyyat-tranzit sahəsində əməkdaşlığın səviyyəsi yüksək dəyərləndirilib, iki ölkə arasında avtomobil daşımalarının həcminin 2021-ci ildə əhəmiyyətli dərəcədə - 70 faiz artdığı xüsusi vurğulanıb.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əhəmiyyətinə toxunularaq həm Azərbaycanın, həm də İranın bu dəhlizin fəaliyyətə başlaması və gələcək inkişafı işində çox böyük səylər göstərdiyi bildirilib.

Eyni zamanda bölgədə nəqliyyat kommunikasiyalarının açılmasının əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığı qeyd edilib. Bu baxımdan iki ölkə arasında bu gün imzalanacaq İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında anlaşma memorandumunun önəmi vurğulanıb.

Həmçinin İran şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində işə başlamalarından məmnunluq ifadə olunub.

Neft-qaz sahəsində əməkdaşlığın səviyyəsi yüksək qiymətləndirilib, Türkmənistan qazının İran üzərindən Azərbaycana tranzitinin həyata keçirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Elektroenergetika sahəsində əməkdaşlığın nəticələri təqdir edilib, iki ölkənin enerji sistemləri arasında elektrik enerjisi mübadiləsinin uğurla həyata keçirildiyi bildirilib. Azərbaycan, İran və Rusiya arasında enerji dəhlizinin yaradılması layihəsi üzrə müvafiq işlərin davam etdiyi qeyd olunub.

İclasda Azərbaycanla İran arasında qarşılıqlı faydalı əməkdaşlığın müxtəlif sahələrdə daha da genişləndirilməsi perspektivləri müzakirə edilib.

Həmçinin Astaraçay üzərində yeni avtomobil və piyada yolu körpüsünün, Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su-elektrik stansiyalarının tikintisi, digər birgə layihələrin icra vəziyyəti, həmçinin gündəlikdə duran məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.

Eyni zamanda tərəflər arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında anlaşma memorandumu imzalanıb.

Memorandumun məqsədi Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə İran İslam Respublikasının ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikası arasında yeni dəmir yolu, avtomobil yolu əlaqəsinin, eləcə də rabitə və enerji təminatı xətlərinin yaradılmasından ibarətdir. Bu məqsədə nail olmaq üçün Araz çayı üzərində iki avtomobil (piyada keçidi ilə) və iki dəmir yolu olmaqla ümumilikdə dörd körpünün, eləcə də rabitə və enerji təminatı infrastrukturunun tikintisi nəzərdə tutulur.

Sonda Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının 15-ci iclasının protokolu imzalanıb.

# Xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində bir sıra görüşlər keçirib







Martın 11-də Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Xusrav Noziri ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş çərçivəsində nazir Ceyhun Bayramov İƏT-in sonuncu Aşqabad Sammitinin nəticələrini yüksək qiymətləndirib. Nazir Azərbaycanın təşkilatla əməkdaşlığa əhəmiyyət verdiyini və qurumun ölkəmizdə iki ixtisaslaşmış təşkilatının yerləşdiyini vurğulayıb. Təşkilatın "yaşıl enerji" üzrə mərkəzinin Azərbaycanda yaradılması və bununla əlaqədar mərkəzin nizamnaməsinin üzv dövlətlər tərəfindən imzalanması, yaxın zamanlarda fəaliyyətə başlamasının əhəmiyyəti vurğulanıb.

Nazir Ceyhun Bayramov Aşqabad Sammitindən irəli gələn məsələlərin həlli, xüsusilə İƏT çərçivəsində iqtisadi, nəqliyyat bağlılığı, eyni zamanda enerji sahəsində əməkdaşlığın vacibliyini və bu məsələlərin Azərbaycan üçün də prioritet olduğunu nəzərə alaraq, ölkəmizin sözügedən istiqamətlərdə əməkdaşlığa əhəmiyyət verdiyini diqqətə çatdırıb.

İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Xusrav Noziri Azərbaycanın təşkilatla əməkdaşlığa verdiyi töhfəni qeyd edib. O, İƏT Katibliyinə Azərbaycan diplomatlarının ezam edilməsinin yüksək qiymətləndirildiyini ifadə edib. Xusrav Noziri eyni zamanda enerji və iqtisadi bağlılıq məsələlərinin İƏT-in gündəliyində duran əsas məsələlər olduğunu, Azərbaycanın bu sahələrdə rolunun vacibliyini vurğulayıb. Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

* * *

Xarici işlər naziri Ceyhun Bayramov Latviyanın Baş nazirinin müavini, müdafiə naziri Artis Pabriks ilə görüşüb.

Ceyhun Bayramov həmsöhbətinə Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi hərbi təcavüzünün nəticələri, azad edilmiş ərazilərdə infrastruktura dəymiş ziyan və dağıntıların miqyası, habelə postmünaqişə dövründə bölgədə mövcud olan vəziyyət barədə ətraflı məlumat verib. Nazir Avropa İttifaqı ölkələri tərəfindən beynəlxalq hüquqa uyğun yanaşmanın tətbiq edilməsinin vacibliyini vurğulayıb.

Xarici işlər naziri Avropa İttifaqı ilə əməkdaşlıq və gündəlikdə duran vacib məsələləri də qeyd edib. Azərbaycanın Avropa İttifaqı ilə sazişin yekunlaşmasına önəm verdiyi diqqətə çatdırılıb.

Öz növbəsində, Latviyanın müdafiə naziri Artis Pabriks ölkəsinin Azərbaycan ilə əlaqələrə xüsusi önəm verdiyini və ölkəmizi özünün strateji tərəfdaşı hesab etdiyini bildirib. O, bu il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün əlamətdar hadisə olduğunu vurğulayıb.

Görüşdə Ukraynada baş verən hadisələr və Azərbaycan tərəfindən Ukraynada böhranın aradan qaldırılması məqsədilə göstərilən humanitar yardım məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran regional və digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

* * *

Azərbaycan Respublikasının xarici işlər naziri BMT-nin Qaçqınlar üzrə Ali Komissarı (BMT QAK) Filippo Qrandi ilə görüşüb.

Görüşdə Azərbaycan ilə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı arasında əməkdaşlığın perspektivlərinə və gündəlikdə duran humanitar məsələlərə dair fikir mübadiləsi aparılıb. Həmçinin 2020-ci il 10 noyabr Bəyanatına uyğun olaraq, məcburi köçkünlərin öz evlərinə qayıdışı məsələsi də müzakirə edilib.

Görüş zamanı nazir Ceyhun Bayramov Azərbaycanın BMT QAK ilə əməkdaşlığa önəm verdiyini vurğulayaraq, azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işləri, həmçinin məcburi köçkünlərin bu ərazilərə geri qaytarılması tədbirləri barədə qarşı tərəfə ətraflı məlumat verib.

Filippo Qrandi ətraflı məlumata görə təşəkkürünü ifadə edib və ölkəmizin bu istiqamətdə gördüyü işlərin təqdirəlayiq olduğunu bildirib.

Tərəflər məcburi köçkünlərin öz doğma torpaqlarına təhlükəsiz qayıdışını təmin etmək üçün əməkdaşlığın davam etdirilməsinə qarşılıqlı maraq ifadə ediblər.

Görüşdə həmçinin regional məsələlər, o cümlədən Ukraynadakı vəziyyət müzakirə olunub.

* * *

Ceyhun Bayramov Somali Federativ Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Abdisaid Muse Ali ilə görüşüb.

Görüşdə nazirlər iki ölkə arasında əməkdaşlıq məsələlərini müzakirə ediblər. Eyni zamanda ölkələrin beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən Qoşulmama Hərəkatında əməkdaşlığı məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Görüşdə regional məsələlər də müzakirə edilib.

Nazir Ceyhun Bayramov münaqişədən sonra bölgədəki cari vəziyyət barədə həmkarını məlumatlandırıb.

Somali Federativ Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Abdisaid Muse Ali ərazi bütövlüyünün təmin olunması münasibətilə Azərbaycanı təbrik edib.

Nazirlər həmçinin təhsil sahəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər. Somalili nazir Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində təhsil təqaüdlərinin ayrılmasını yüksək qiymətləndirib, bu sahədə gələcəkdə əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını ifadə edib.

Tərəflər eyni zamanda qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Martın 11-də iqtisadiyyat naziri Mikayıl Cabbarov Quba şəhərində Qusar və Quba rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbula gələn vətəndaşlar sahibkarlıq fəaliyyəti, güzəştli kreditlərin verilməsi, vergi inzibatçılığı, əmlak məsələləri, istehsal, emal və xidmət müəssisələrinin yaradılması və sair məsələlərlə bağlı müraciət ediblər.

İqtisadiyyat Nazirliyinin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri diqqətlə dinlənilib, bir hissəsi həll olunub, araşdırma tələb edən müraciətlər qeydiyyata alınıb və həlli üçün müvafiq tapşırıqlar verilib.

Qəbula gələn sahibkarların təklifləri isə müzakirə olunub, heyvandarlıq, bağçılıq, turizm-sanatoriya kompleksinin yaradılması və sair sahələr üzrə investisiya layihələrinin güzəştli kreditlər hesabına maliyyələşdirilməsi ilə bağlı müvafiq göstərişlər verilib.

* * *

Baş prokuror Kamran Əliyev martın 11-də Lənkəran Rayon Prokurorluğunun inzibati binasında Lənkəran, Lerik və Astara rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsinə ehtiramını bildirib.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda K.Əliyev bölgədə yaşayan 34 vətəndaşın müraciətində qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

Qəbuldan sonra Kamran Əliyev Lənkəran Hərbi, Lerik və Astara rayon prokurorluqlarında olub, əməkdaşlarla görüş keçirib. Baş prokuror bölgədə ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyi və kəsərliliyinin artırılması üçün konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

* * *

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən bildiriblər ki, qəbuldan öncə nazir İnam Kərimov və Şəki Rayon İcra Hakimiyyətinin başçısı Elxan Usubov şəhərin mərkəzində ucaldılan Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər çiçəklər qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Daha sonra nazir İnam Kərimov Şəki Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında yaradılan şəraitlə tanış olub, fermerlərə informasiya məsləhət xidmətinin göstərilməsində iştirak edən Aqrar İnkişaf Könüllülərinin bir qrupu ilə görüşüb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 55 nəfərin müraciətinə baxılıb. Qəbula gələn vətəndaşların müraciəti əsasən subsidiyaların ödənişi, fermerlərə güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə və digər məsələlərlə bağlı olub. Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

Nazir vətəndaşlarla görüş zamanı dövlət başçısının kənd təsərrüfatının inkişafı ilə bağlı imzaladığı sərəncamların kənd təsərrüfatı istehsalçılarının rifah halının yaxşılaşdırılmasına və ölkəmizdə bu sahənin inkişafına təkan verəcəyini vurğulayıb. Qəbula gələn vətəndaşlar göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Şəki Dövlət Aqrar İnkişaf Mərkəzinin binasında Aqrar Xidmətlər Agentliyinin Səyyar Xidmət Qrupu mexanizatorlar üçün səyyar xidmət təşkil edib. Xidmət zamanı etibarlılıq müddəti bitən traktor və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün mexanizatorların sürücülük vəsiqələri yeniləri ilə əvəz olunub. "Səyyar Xidmət" qrupu öz fəaliyyətini gün ərzində davam etdirəcək.

Nazir İnam Kərimov səyyar xidmətin təşkili prosesi ilə maraqlanıb, mexanizatorların müraciətlərini dinləyib, lazımi tövsiyələrini verib.

* * *

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Ağstafada vətəndaşlarla görüşüb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən bildirilib ki, qəbuldan əvvəl nazir Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib.

Görüşdə Ağstafa ilə yanaşı, Qazax və Tovuz rayon sakinlərinin nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri ilə bağlı müraciətləri dinlənilib.

Nazir Rəşad Nəbiyev müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ şəkildə araşdırılması ilə əlaqədar nazirliyin müvafiq qurumlarının rəhbərlərinə tapşırıqlar verib. Vətəndaşların müraciətlərində qaldırılan problemlərin bir qismi yerində həllini tapıb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlərin isə qeydiyyata alınaraq müvafiq qurumlara göndərilməsi təmin olunacaq.

* * *

2022-ci il martın 11-də ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Siyəzən şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Siyəzən və Xızı rayonlarından olan vətəndaşları qəbul edib.

Nazirliyin Mətbuat xidmətindən bildirilib ki, qəbuldan əvvəl nazir və Siyəzən Rayon İcra Hakimiyyətinin başçısının birinci müavini Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Görüş zamanı ətraf mühitin mühafizəsi, meşələrin qorunması, biomüxtəliflik, geologiya və s. məsələlərlə bağlı vətəndaşların müraciət və təklifləri dinlənilib. Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərlərinin isə qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə nazirliyin məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şəraitin yaradılmasından razılıqlarını bildirərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

***AZƏRTAC***

# Antalya Diplomatiya Forumu çərçivəsində YAP ilə AK Parti arasında əməkdaşlığın perspektivləri müzakirə olunub



Türkiyə Prezidentinin himayədarlığı ilə bu ölkənin Xarici İşlər Nazirliyi tərəfindən təşkil olunan Antalya Diplomatiya Forumu (ADF) çərçivəsində Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri, Türkiyənin Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini Binəli Yıldırım arasında görüş keçirilib.

Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun üzvü Ramil Həsən və Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Şamil Ayrım görüşdə iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, görüşdə Yeni Azərbaycan Partiyası ilə Türkiyənin Ədalət və İnkişaf Partiyası arasında ötən il imzalanmış əməkdaşlıq protokolu, bu sənəd çərçivəsində uğurla həyata keçirilən qarşılıqlı layihələr və tədbirlər, perspektivdə olan məsələlər, eləcə də iki qardaş ölkə arasında imzalanan Şuşa Bəyannaməsinin ildönümü ərəfəsində görüləcək işlər ətrafında səmərəli fikir mübadiləsi aparılıb. Həmçinin Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

Yeni Azərbaycan Partiyasının nümayəndə heyətini səmimiyyətlə salamlayan Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini Binəli Yıldırım Azərbaycan Prezidenti İlham Əliyevin martın 10-da Türkiyəyə işgüzar səfərinin nəticələrini yüksək dəyərləndirib, ADF-də rəsmi nümayəndə heyət ilə təmsil olunduğu üçün Yeni Azərbaycan Partiyasına minnətdarlığını ifadə edib.

Yüksək qonaqpərvərliyə, Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılması üçün Antalya Diplomatiya Forumunda yaradılan geniş şəraitə görə səmimi minnətdarlığını ifadə edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini Tahir Budaqov ADF-nin sülh, sabitlik, inkişaf və tərəqqi yolunda beynəlxalq müzakirələr platforması kimi dəyərləndirərək, əminliklə bildirib ki, bu tədbir qısa zaman çərçivəsində geniş mənada və böyük coğrafiyada cəlbediciliyini daha da artıracaq.

Türkiyə Prezidenti, Ədalət və İnkişaf Partiyasının Sədri Rəcəb Tayyib Ərdoğanın praqmatik, uzaq strategiyaları hədəf alan lider olduğunu xatırladan YAP Sədrinin müavini Tahir Budaqov əminliklə bildirib ki, martın 18-də açılışı keçiriləcək "1915 - Çanaqqala Körpüsü" qardaş ölkədə inkişaf və tərəqqi tarixi yaradan AK Partiya hakimiyyətinin ən böyük uğurlarındandır. Bu körpü Avrasiya məkanını ən etibarlı yol ötürücüsü kimi tarixə düşəcək.

Görüşdə Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev ilə Türkiyənin Ədalət və İnkişaf Partiyasının Sədri, Prezident Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətləri məmnunluqla xatırlanıb. Partiya funksionerləri əminliklə bildiriblər ki, liderlərimizin strateji məsələlərdə qətiyyətli və ortaq qərarları Azərbaycan və Türkiyənin bundan sonra da birgə inkişafını təmin edəcək.

Görüşdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun 44 günlük Vətən savaşında qazandığı parlaq hərbi qələbə nəticəsində regionda yaranmış yeni geosiyasi vəziyyət, Türkiyənin sərgilədiyi qardaşlıq mövqeyi, mövcud regional münasibətlərin perspektivləri ətrafında səmərəli fikir mübadiləsi aparılıb. İki qardaş ölkənin hakim partiyaları arasında qardaşlıq münasibətləri tarixi hadisə, dövlətçilik tariximizdə həmrəyliyin və proseslərə strateji yanaşmanın bariz nümunəsi kimi dəyərləndirilib.

# Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının növbəti iclası keçirilib



Martın 11-də Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədovun sədrliyi ilə ötən il ərzində aidiyyəti nazirlik, komitə və digər təşkilatlar tərəfindən görülmüş işlərin müzakirəsinə dair komissiyanın videokonfrans formatında növbəti iclası keçirilib.

Dövlət Komissiyasının işçi qrupundan AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın yerinə yetirilməsinə dair görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib.

Qeyd edilib ki, ölkədə insanların sağlamlığının qorunması, mənəvi-əxlaqi dəyərlərin aşınmasının qarşısının alınması zərurəti narkomanlığa, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin əhəmiyyətini ciddi şəkildə artırıb. Hesabat dövründə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığa qarşı mübarizədə dövlətin və vətəndaş cəmiyyəti təşkilatlarının səylərinin birləşdirilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi sayəsində sözügedən Dövlət Proqramının həyata keçirilməsi istiqamətində aparılan işlərin səmərəliliyinin daha da yüksəldilməsi üçün müvafiq zəruri tədbirlər görülüb.

Bununla yanaşı, Komissiyanın sədri ölkə ərazisində hüquq-mühafizə orqanları tərəfindən 2021-ci il ərzində 8535 fakt üzrə 6 ton 607 kiloqramdan artıq müxtəlif növ narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyədən çıxarılması, müsadirə edilmiş narkotik vasitələrin və psixotrop maddələrin 4 ton 91 kiloqramının ölkəmizə qaçaqmalçılıq yolu ilə gətirilməsi, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar başlanmış cinayət işlərinin istintaqı nəticəsində 6512 nəfərin cinayət məsuliyyətinə cəlb edilməsi, cinayət məsuliyyətinə cəlb olunmuş şəxslərdən 70 nəfərinin xarici ölkə vətəndaşı olması barədə məlumatları iclas iştirakçılarının diqqətinə çatdırıb.

Komissiyanın iclasında daxili işlər nazirinin birinci müavini Seyfulla Əzimov, Dövlət Gömrük Komitəsi sədrinin müavini Əsgər Abdullayev, Dövlət Sərhəd Xidməti rəisinin müavini Firuz Şirinzadə, səhiyyə nazirinin müavini Nadir Zeynalov, təhsil nazirinin müavini Firudin Qurbanov, Azərbaycan Respublikası Audiovizual Şuranın sədri İsmət Səttarov təmsil etdikləri qurumlar tərəfindən bu sahədə aparılan mübarizə tədbirləri, əldə olunan nəticələr və qarşıda duran vəzifələr barədə çıxış edərək ətraflı məlumat veriblər.

İclasda son dövrlərdə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyədən çıxarılması, ölkəyə gətirilməsi və istifadəsi ilə bağlı faktların artmasından narahatlıq ifadə edilib. Bu cür halların qarşısının alınması üçün müvafiq dövlət qurumlarının və ictimaiyyətin səylərinin artırılması, narkomanlığa qarşı profilaktik tədbirlərin və maarifləndirmə işinin aidiyyəti orqanlar tərəfindən birgə tədbirlər planları hazırlayaq kompleks şəkildə təşkil edilməklə gücləndirilməsinin zəruriliyi vurğulanıb.

Sonda qarşıda duran vəzifələrin icrası, narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısının alınması sahəsində fəaliyyətlərinin gücləndirilməsi, müasir texnologiyaların tətbiqinin genişləndirilməsi, narkoloji müalicə müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsi, reabilitasiya mərkəzlərinin yaradılması, yeniyetmə və gənclər arasında təbliğat və maarifləndirmə işlərinin təsirli vasitələrlə təşkili, narkomanlığın xüsusilə geniş yayıldığı şəhər və rayonlarda narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı kompleks tədbirlər hazırlayıb həyata keçirilməsi və digər zəruri tədbirlərin icra edilməsi istiqamətində səmərəliliyin daha da artırılması ilə bağlı aidiyyəti qurumlar qarşısında konkret vəzifələrin qoyulmasına dair müvafiq qərar qəbul edilib.

# Rüstəm Məmmədibrahim oğlu İbrahimbəyov



Azərbaycan mədəniyyətinə ağır itki üz vermişdir. Müasir Azərbaycan ədəbiyyatının və kino sənətinin görkəmli nümayəndəsi, tanınmış nasir, dramaturq, ssenarist və rejissor, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Dövlət mükafatları laureatı, Əməkdar incəsənət xadimi, Xalq yazıçısı Rüstəm Məmmədibrahim oğlu İbrahimbəyov 2022-ci il martın 10-da ömrünün 84-cü ilində vəfat etmişdir.

Rüstəm İbrahimbəyov 1939-cu il fevralın 5-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1956-1962-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunda ali təhsil almış, əmək fəaliyyətinə 1962-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasında başlamışdır.

Gənc yaşlarından ədəbiyyat və kino sənəti ilə yaxından maraqlanan Rüstəm İbrahimbəyov Moskvada 1967-ci ildə ali ssenarist kursunu, 1974-cü ildə ali rejissorluq kursunu bitirmişdir.

Rüstəm İbrahimbəyov müasir Azərbaycan ədəbiyyatının və kinematoqrafiyasının görkəmli simalarındandır. O, çoxcəhətli fəaliyyəti ilə ölkəmizin hüdudlarından kənarda da tanınmışdır. Nəsrimizin yeni mərhələyə qədəm qoymasının fəal iştirakçısı olan Rüstəm İbrahimbəyov öz səmərəli yaradıcılığı ilə bədii-estetik fikrin zənginləşməsində mühüm rol oynamış, yarım əsrdən artıq müddət ərzində ədəbi-mədəni mühitin inkişafına töhfələr vermişdir. Sənətkarın sosial-mənəvi problemləri, dramatik konfliktləri və müasirlərimizin daxili aləmini həyat həqiqətləri əsasında ustalıqla əks etdirən povestləri və hekayələri, pyesləri və ssenariləri ədəbiyyatımızın və milli kino sənətinin məzmunca yeniləşməsində əhəmiyyətli rol oynamışdır. Onun əsərləri əsasında 40-dan çox bədii və televiziya filmləri çəkilmişdir. Mühüm sosial həqiqətlərdən söz açan, rəngarəng və dolğun obrazlarla zəngin bu əsərlər özünəməxsus dəst-xətti ilə seçilən sənətkara böyük oxucu və tamaşaçı auditoriyasının rəğbətini qazandırmışdır.

Rüstəm İbrahimbəyovun ssenarist və rejissor olaraq kinematoqrafiyanın inkişafında da təqdirəlayiq xidmətləri vardır. Yazıçının ssenariləri əsasında çəkilən "Bir cənub şəhərində", "Səhranın bəyaz günəşi", "İstintaq", "Ad günü" və bir çox digər filmlər geniş şöhrət tapmış, yüksək mükafatlarla təltif edilmişdir. Onun həmmüəllif ssenaristi olduğu "Urqa" filmi 1991-ci ildə Venesiya Beynəlxalq Kinofestivalının ali mükafatına, "Günəşdən usanmışlar" filmi isə 1994-cü ildə Kann Beynəlxalq Kinofestivalının ali mükafatına və 1995-ci ildə Amerika Kino Akademiyasının "Oskar" mükafatına layiq görülmüşdür.

Rüstəm İbrahimbəyov bədii yaradıcılıqla yanaşı, eyni zamanda ictimai fəaliyyət göstərmişdir. O, 1967-1981-ci illərdə Azərbaycan Kinematoqrafçılar İttifaqı İdarə Heyətinin katibi, 1981-1985-ci illərdə birinci katibi, 1986-1991-ci illərdə SSRİ Kinematoqrafçılar İttifaqı İdarə Heyətinin katibi, 1990-cı ildən ömrünün sonunadək Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri olmuş, 1989-cu ildə SSRİ Ali Sovetinin deputatı seçilmişdir.

Rüstəm İbrahimbəyovun xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, 1976-cı ildə "Əməkdar incəsənət xadimi", 1998-ci ildə "Xalq yazıçısı" fəxri adlarını almış, Azərbaycan ədəbiyyatının və kino sənətinin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının ali dövlət təltifi olan "Şöhrət" ordeninə layiq görülmüşdür.

Görkəmli yazıçı və kino xadimi Rüstəm İbrahimbəyovun xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**İlham Əliyev, Mehriban Əliyeva, Əli Əsədov, Sahibə Qafarova, Samir Nuriyev, Eldar Əzizov, Fərəh Əliyeva, Anar Kərimov, Anar Rzayev, Şəfiqə Məmmədova, Oqtay Mirqasımov, Ramiz Fətəliyev, Rasim Balayev, Hacı İsmayılov**

# Rüstəm İbrahimbəyovun cənazəsinin Azərbaycana gətirilməsi və dəfni ilə bağlı dövlətimiz tərəfindən müvafiq tədbirlər görülür

Görkəmli yazıçı, dramaturq, ssenarist, prodüser və kinorejissor Rüstəm Məmmədibrahim oğlu İbrahimbəyov uzunsürən xəstəlikdən sonra 2022-ci il martın 10-da 84 yaşında Moskva şəhərində vəfat edib.

AZƏRTAC xəbər verir ki, Rüstəm İbrahimbəyov 1939-cu il fevralın 5-də Bakı şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra o, Azərbaycan Neft və Kimya İnstitutunda, daha sonra isə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda ssenarist və rejissor ixtisası üzrə təhsil alıb.

Bütün həyatını yaradıcılığa həsr edən Rüstəm İbrahimbəyov Azərbaycanda və ölkəmizin hüdudlarından kənarda geniş tanınıb, onun əsərləri böyük oxucu və tamaşaçı auditoriyasının rəğbətini qazanıb. Rüstəm İbrahimbəyovun əsərləri əsasında 40-dan çox bədii film və televiziya filmi, tamaşa çəkilib, "Urqa - məhəbbət dairəsi", "Günəşdən usanmışlar", "Sibir bərbəri", "Şərq-Qərb", "Səhranın bəyaz günəşi" və digər sənət əsərləri ona bütün postsovet məkanında böyük populyarlıq qazandırıb. Rüstəm İbrahimbəyovun ssenari müəllifi və rejissoru olduğu bir sıra filmlər beynəlxalq festivallarda müxtəlif mükafatlara layiq görülüb.

Azərbaycan dövləti Rüstəm İbrahimbəyovun fəaliyyətini yüksək qiymətləndirib. O, "Əməkdar incəsənət xadimi", "Xalq yazıçısı" fəxri adlarına, "Şöhrət", III dərəcəli "Vətənə xidmətə görə" ordenlərinə, Azərbaycan Respublikasının dövlət mükafatlarına layiq görülüb.

Rüstəm İbrahimbəyovun cənazəsinin Azərbaycana gətirilməsi və dəfni ilə bağlı dövlətimiz tərəfindən müvafiq tədbirlər görülür.

Görkəmli yazıçı Rüstəm İbrahimbəyovun xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaq.

Allah rəhmət eləsin!

# Hərbi attaşelər "İqlim" elmi-istehsalat müəssisəsini ziyarət ediblər

Azərbaycan Respublikası müdafiə nazirinin təsdiq etdiyi illik fəaliyyət planına əsasən, xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş hərbi attaşeləri Müdafiə Sənayesi Nazirliyinin "İqlim" elmi-istehsalat müəssisəsini ziyarət ediblər.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi attaşelərə müəssisənin fəaliyyəti və istehsal olunan atıcı silahlarla bağlı ətraflı məlumat verilib. Nümayəndələr müəssisədə istehsal olunan hərbi təyinatlı məmulatların hazırlanma prosesini izləyiblər. Bildirilib ki, müəssisədə istehsal olunan atıcı silahlar beynəlxalq sərgilərdə nümayiş etdirilməklə yanaşı, ixracı da həyata keçirilir. Qonaqlar burada həmçinin istehsal olunan hərbi təyinatlı məmulatlarla bağlı sərgi ilə tanış olublar.

Hərbi attaşelər ziyarətin yüksək səviyyədə təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Sonda xatirə şəkli çəkdirilib.

# Bolqarıstan parlamentində Xocalı soyqırımı ilə bağlı bəyannamə qəbul edilib

Martın 10-da Bolqarıstan Respublikasının Xalq Məclisində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar bəyannamə qəbul olunub.

Azərbaycanın Bolqarıstandakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, bəyannamədə Xocalı qətliamı zamanı qətlə yetirilmiş 613 nəfərin, həmçinin yaralanmış və itkin düşmüş mindən çox şəxsin xatirəsi ehtiramla anılıb, baş vermiş kütləvi qırğın qətiyyətlə pislənilib.

# Azərbaycan ilə Böyük Britaniya arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü qeyd olunub





Martın 11-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə tədbir və sərgi keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə nazirliyin rəhbər heyəti, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı səfirliyinin əməkdaşları, habelə Britaniya Şurasının nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov Azərbaycan və Böyük Britaniya arasında müxtəlif, o cümlədən siyasi, iqtisadi, ticari, mədəni, təhsil və digər sahələrdə münasibətlərin 30 illik inkişaf yoluna nəzər salıb və iki ölkə arasındakı münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını bildirib.

Daha sonra çıxış edən Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Layl Şarp Azərbaycan ilə Böyük Britaniya arasında müxtəlif sahələrdə, o cümlədən energetika sahəsində əməkdaşlığın uğurla davam etdiyini bildirib. Səfir BP və digər Britaniya şirkətlərinin Azərbaycandakı fəaliyyətini vurğulamaqla yanaşı, ölkəmizin də öz növbəsində Avropanın enerji təhlükəsizliyinə töhfəsini məmnunluqla qeyd edib.

Sonra çıxış edən Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson Azərbaycan ilə Böyük Britaniya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə səmimi təbriklərini çatdırıb.

Sonda tədbir iştirakçıları Azərbaycan ilə Böyük Britaniya arasında diplomatik münasibətlərin 30 illiyinə həsr edilmiş sərgi ilə tanış olublar.

# Paşinyan Ermənistanı fəlakətə sürükləyir

## İrəvanda bahalaşma yaranmış böhranı daha da dərinləşdirir

Ermənistanda iqtisadiyyatdan tutmuş siyasət və digər sahələrə qədər vəziyyətin daha sürətlə pisləşməsi artıq özünü qabarıq göstərir. Hakimiyyət əleyhinə yönələn etirazların sayının artması və Nikol Paşinyanın istefasının əsas tələb kimi qoyulması mövcud iqtidarın durumunu xeyli ağırlaşdırır.

Əsasən qeyd olunur ki, müharibədəki məğlubiyyət fonunda Ermənistanda iqtisadi göstəricilər yaxşıya doğru dəyişməyib, əksinə, daha da pisləşib. Nəticədə yoxsulluq səviyyəsi bir qədər də artıb. İqtisadi tənəzzülün davam etməsi ilə birlikdə hakimiyyətin reytinqi də sıfra yaxınlaşır.

Qeyd olunur ki, hazırda ölkədə adambaşına düşən gəlir qabaqcıl ölkələrlə müqayisədə təxminən 16 dəfə, məhsuldarlıq isə 9 dəfə aşağıdır. Ermənistanın ərzaq təhlükəsizliyi ilə bağlı heç bir tədbir görülmür. Uzun illərdir ki, aqrar sektorda böhran hökm sürür. Bu sahədə islahatlara başlamaq barədə heç bir təşəbbüs göstərilmir. Məhz bunun nəticəsidir ki, bu gün Ermənistanda kənd təsərrüfatı sahəsində azalma 25-30 faiz təşkil edir.

Bu məqamda məlum olub ki, gələn ayın əvvəlindən Ermənistan istehlakçıları üçün qazın qiyməti artacaq. Bu qiymət artımı bahalaşma zəncirinin növbəti halqası kimi qiymətləndirilməlidir, çünki artıq su və işıq tarifləri qalxıb, əsas istehlak mallarının bahalaşması isə çoxdan gündəlik hadisəyə çevrilib. "4rd.am" saytı yazır ki, Ermənistan Dövlət Xidmətlərinin Tənzimlənməsi Komissiyası qazın qiymətinin sərhəddə artmadığını, ölkəyə verilən qazın kalorifik dəyərinə uyğun tənzimləndiyini izah etməyə çalışsa da, ermənilərin qaza görə daha çox pul ödəyəcəkləri fakt olaraq qalır. Bildirilir ki, qazın qiyməti məsələsi Ermənistan cəmiyyəti üçün həmişə ən həssas məsələlərdən biri olub, ümumiyyətlə, bu, təkcə məhsulların qiymətinə deyil, həm də tranzit qiymətlərin formalaşmasında böyük rol oynayır. Bu ölkədə avtomobillərin əksəriyyəti təbii qazla işləyir. Yanacağın qiyməti qalxdıqda yanacaqdoldurma məntəqələri dərhal avtomobillərə doldurulan qazın qiymətini artırır.

Ermənistanda qazın qiymətinin artması bir sıra obyektiv və subyektiv səbəblərdən digər məhsulların qiymətlərinə zəncirvari təsir göstərir. Belə çıxır ki, inflyasiyanın artıq rekord həddə çatdığı halda qazın qiyməti kütləvi qiymət artımlarına səbəb olacaq. Başqa sözlə, əgər əvvəllər bahalaşma Ermənistanın sosial-iqtisadi vəziyyətinə ciddi zərbə vururdusa, indi mavi yanacağın bahalaşması nəticəsində vəziyyət, sadəcə olaraq, ekstremal xarakter alacaq.

Bu arada Ermənistanda əhalinin gəlirləri də azalmaqda davam edir. Rublun devalvasiyası nəticəsində Ermənistandan Rusiya bazarına məhsulların ixracı xeyli zərərlə başa gələcək, ixracın azalması isə büdcəyə ödənilən məbləğin də xeyli azalmasına səbəb olacaq. Büdcədəki maliyyə boşluğunun dərinləşməsi nəticəsində hökumət, sadəcə olaraq, sıravi ermənilər qarşısında öhdəliklərini yerinə yetirə bilməyəcək, pensiya və maaşları da ödəyə bilməyəcək. Belə vəziyyətlərdə, son üç-dörd ilin göstərdiyi kimi, Paşinyan hakimiyyəti həmişə xaricdən yeni kredit cəlb etmək və ya dövlət borcunu artırmaq variantını nəzərdən keçirir.

Qeyd edək ki, malların gömrük rüsumları da artırılıb. Ermənistanda idxal edilən quş əti üçün gömrük rüsumu 30 faiz, düyü və marqarin üçün 2 faiz, kartof və lobya toxumları üçün 1 faiz artıb. Qiymətli və yarımqiymətli daşlar və metallar üzrə tariflərdə qızıl üçün 3-6 faiz, gümüş üçün 5 faiz artım olub. Bu ildən etil spirti, alkoqollu içkilər, tütün və bir sıra digər məhsulların aksiz dərəcələri artırılıb ki, bu da onların son qiymətlərinin yüksəlməsinə səbəb olub.

Bütün bunlar göstərir ki, qarşıdakı dövr Ermənistanda heç də sakit keçməyəcək.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Daxili İşlər Nazirliyinin Daxili Qoşunları

*Vətənin, dövlətin və xalqın etibarlı keşiyində*







## Müzəffər Komandanın qəhrəman əsgərləri

### Daxili Qoşunlar "Dəmir yumruğ"un əsas zərbə güclərindən biridir













*Əvvəli 1-ci səh.*

Sovet dövründə də ictimai təhlükəsizliyin qorunması və xüsusi tapşırıqların yerinə yetirilməsi məqsədilə DİN-in tərkibində hərbi statuslu qurum kimi Daxili Qoşunlar mövcud olub. Bu xidmətdə minlərlə azərbaycanlı zabit, gizir, çavuş və əsgər də hərbi xidmət keçib, bir qisminin zəngin xidmət təcrübəsindən sonradan ölkəmizin ordu quruculuğu prosesində, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təşkilində istifadə edilib.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Daxili Qoşunların yaradılmasına başlanıldı. SSRİ DİN-in Daxili Qoşunlarının o vaxt Bakı, Sumqayıt və Gəncədə yerləşmiş hərbi hissələrinin bazasında müstəqil dövlətimizə məxsus yeni hərbi hissələrin yaradılması hərbi quruculuq baxımından mühüm hadisə idi. Daxili Qoşunların hərbi hissələrinin müddətli həqiqi hərbi xidmət keçən hərbi qulluqçularla komplektləşdirilməsi üçün çağırışçıların seçimi aparıldı, onlar qoşunların sıralarına göndərildi.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunları üzərinə düşən vəzifələri uğurla yerinə yetirir. Bu gün Daxili Qoşunlar, sözün əsl mənasında, xalqımızın əmin-amanlığı, dövlət və dövlətçiliyin daha da gücləndirilməsi naminə fədakar xidmətini davam etdirməkdədir.

Daxili Qoşunlar müstəqil dövlətimizin ilk nizami qoşun növlərindən biri kimi ordu quruculuğunun başlanğıc mərhələsində xüsusi rol oynayırdı. İlk mərhələdə bu hərbi hissələr yaşayış məntəqələrində daxili işlər orqanları ilə birgə ictimai asayişin və təhlükəsizliyin qorunması, silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsi, cəzaçəkmə müəssisələrinin mühafizəsi kimi mühüm vəzifələri yerinə yetirirdilər. Sonrakı dövrdə artıq regionlarda Daxili Qoşunların yeni hərbi hissələri yaradıldı, xidməti fəaliyyətin genişləndirilməsi prosesi davamlı xarakter aldı, maddi-texniki potensialın artırılması yönündə çoxşaxəli tədbirlər görüldü.

Yarandığı gündən daim dövlətçiliyin keşiyində yenilməz əzmkarlıqla dayanan Daxili Qoşunların inkişaf və yüksəliş yolu xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Daxili Qoşunlar Ulu Öndərin xüsusi diqqət və qayğısı nəticəsində formalaşıb, fəaliyyətinin hüquqi bazası yaradılıb, davamlı inkişaf edib, yüksək döyüş hazırlığına malik hərbi quruma çevrilib.

Heydər Əliyev daxili işlər orqanlarının, o cümlədən Daxili Qoşunların xidməti fəaliyyətini həmişə xüsusi diqqət mərkəzində saxlayıb. Təsadüfi deyildir ki, Ulu Öndər "Dövlət quruculuğu prosesində Daxili Qoşunların düzgün istiqamətdə təşkil olunması çox əhəmiyyətli məsələdir" - deməklə, bu xidmətin, ümumilikdə, dövlət həyatında necə mühüm rol oynadığını aydın göstərib.

Daxili Qoşunların əsas funksiyaları, vəzifələri, fəaliyyət prinsipləri dövlətçilik, müstəqillik və ictimai asayiş üçün çox vacib hədəfləri ehtiva edir. Onlar şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların Konstitusiya hüquqlarını və azadlıqlarını cinayətkar və digər hüquqazidd qəsdlərdən qoruyur, mühüm dövlət obyektlərini, kommunikasiya qurğularını, xüsusi yükləri mühafizə edir, qəzaların, yanğınların, təbii fəlakətlərin nəticələrinin aradan qaldırılmasına çalışır, kütləvi iğtişaşların qarşısını almağa kömək göstərir, yaşayış məntəqələrində postpatrul xidməti vasitəsilə ictimai asayişin qorunmasında, kütləvi tədbirlər keçirilərkən ictimai təhlükəsizliyin təmin olunmasında iştirak edir, ən nəhayət, Azərbaycan Respublikası ərazisinin müdafiəsində canlarından belə keçirlər.

Vətən savaşında olduğu kimi...

### Qəhrəmanlıq salnaməsi

Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədovla yubiley öncəsi görüşdük. Komandan dedi ki, Daxili Qoşunların şəxsi heyətinin fəaliyyətinin hər bir günü dövlətə, Vətənə, xalqa bağlılığı və xidməti anda dönməz sədaqəti əks etdirir: "Fəaliyyətimizin əsas göstəricilərindən biri də ərazi bütövlüyümüzün qorunması istiqamətində göstərdiyimiz qəhrəmanlıqlar idi. Heç bir zaman unutmadıq ki, Ulu Öndər Heydər Əliyev Birinci Qarabağ savaşında döyüşlərə başladığımız ilk günü Daxili Qoşunlar Günü kimi elan etdi. Bu həm də bizim üzərimizə qoyulan tarixi öhdəlik idi ki, müharibənin ədalətlə, qələbə ilə bitməsində ön sıralarda olmalı, yarımçıq qalmış işimizi zəfərlə yekunlaşdırmalıydıq. Daxili Qoşunların igid hərbi qulluqçuları Ümummilli Liderin ruhuna olan mənəvi borcu və Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qarşımızda müəyyənləşdirdiyi tarixi vəzifəni böyük məsuliyyətlə, şərəflə, layiqincə icra edərək, "Dəmir yumruğ"un əsas zərbə güclərindən birinə çevrildilər".

Həqiqətən də, hər iki Qarabağ savaşının hərbi salnaməsi Daxili Qoşunların şəxsi heyətinin göstərdiyi qəhrəmanlıq, cəsurluq, şücaət faktları ilə zəngindir. Ağdam rayonunun Şelli, Qalayçılar və Papravənd kəndlərinin müdafiəsinə gələrək, şanlı döyüş yoluna başlayan Daxili Qoşunların hərbi hissələri bu istiqamətlərdə döyüş mövqelərini dərhal öz nəzarətlərinə götürdülər, ilk sınaqdan alnıaçıq çıxaraq, qətiyyət və cəsarət göstərdilər. Şəxsi heyət ön cəbhəyə gəldiyi ilk anlardan yüksək nizam-intizam, ruh yüksəkliyi və qorxmazlıq nümunələri nümayiş etdirdi, zabit, gizir, çavuş və əsgərlər öz fədakarlıqları ilə yerli sakinlərin inamını qazandılar. Döyüş bölgəsində yerləşdirilən Daxili Qoşunların birləşmiş hərbi dəstəsi sonradan yeni hərbi hissələrin təşkilinə zəmin yaratdı.

Daxili Qoşunların hərbi hissələri, ümumilikdə, 1992-1994-cü illərdə Ağdam (Xocalı rayonuna aid ayrı-ayrı yaşayış məntəqələri də daxil olmaqla), Tərtər (Ağdərə istiqaməti), Qubadlı, Laçın, Kəlbəcər, Zəngilan, Füzuli və Cəbrayıl rayonlarının ərazilərində respublikamızın müdafiəsi və ərazi bütövlüyünün bərpası uğrunda şərəfli döyüş yolu keçdilər. Bu istiqamətlərdə döyüş əməliyyatları mürəkkəb relyefə malik, habelə strateji yüksəkliklərin, mühüm kommunikasiya qovşaqlarının, hətta dövlət sərhəd zolağının yerləşdiyi əraziləri, eləcə də kiçik və böyük yaşayış məntəqələrini əhatə etməklə, müxtəlif şəraitlərdə, bəzən döyüş təchizatının fasiləsiz təmin edilməsinin çətinlikləri vəziyyətində aparılırdı. Daxili Qoşunların ön cəbhədəki şəxsi heyətinin iştirakı ilə müxtəlif istiqamətlərdə düşmənin xeyli canlı qüvvəsi, texnika, artilleriya qurğuları, istehkam vasitələrinin məhv edilməsi ilə nəticələnən uğurlu hücum və müdafiə xarakterli döyüşlər oldu. Lakin o dövrün hərbi-siyasi böhranları, xaos və anarxiya elementləri nəticə etibarilə torpaqlarımızın işğalına zəmin yaratdı.

1993-cü il noyabrın 2-də Ümummilli Lider Heydər Əliyevin tarixi çağırışı ilə başlanan Silahlı Qüvvələrin yenidən qurulması prosesində Daxili Qoşunların xüsusi iştirakı oldu. Şəxsi heyət 1993-cü ilin noyabr-dekabr aylarında Füzuli rayonunda düşmənin hücumlarının qarşısının alınmasında, 1994-cü ilin yanvar ayında isə ordu hissələri ilə birgə Horadiz və ətrafdakı onlarca kəndin işğaldan azad olunmasında əvəzsiz xidmətlər göstərdi. 1999-cu ilədək isə Füzuli və Cəbrayıl rayonlarının ərazilərindən keçən təmas xəttindəki mövqelərimizin müdafiə olunması üzrə döyüş tapşırıqlarını layiqincə yerinə yetirdilər. Ümumiyyətlə, Birinci Qarabağ müharibəsində ərazi bütövlüyümüzün bərpası uğrunda döyüşlər zamanı Daxili Qoşunların şəxsi heyətindən 680 nəfər həlak oldu, 1178 nəfər isə yaralandı. 9 nəfər Milli Qəhrəman zirvəsinə yüksəldi...

### Murovdan Şuşayadək Zəfər yolu

Birinci Qarabağ müharibəsindən sonrakı dövrdə qoşunların xidməti fəaliyyəti yeni mərhələyə qədəm qoydu, ötən müddətdə Daxili Qoşunlar təyinatından irəli gələn vəzifələrin icrasında zəngin təcrübə qazandı, geniş quruculuq işləri aparıldı.

Maddi-texniki bazanın yenilənməsi, beynəlxalq hərbi əməkdaşlıq əlaqələrinin qurulması, Daxili Qoşunların döyüş hazırlığına, hərtərəfli təchizatına, müasir silah-sursatına, texnikasına görə Avropanın qabaqcıl ölkələrinin müvafiq qurumları ilə müqayisə edilə bilən səviyyəyə yüksəlməsi Zəfərin əldə olunmasında vacib şərtlərdən biri oldu. 2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək davam edən Vətən müharibəsi zamanı Müzəffər Ali Baş Komandan İlham Əliyevin vahid komandanlığı altında Silahlı Qüvvələrimizin tərkibində Daxili Qoşunların hərbi qulluqçuları şərəfli döyüş ənənələrinə sadiq qalaraq, erməni işğalçıları üzərində möhtəşəm qələbənin qazanılmasına öz layiqli töhfələrini verdilər. Ön cəbhənin bütün istiqamətlərində Daxili Qoşunların şəxsi heyəti düşmənə qarşı igidliklə vuruşaraq, torpaqlarımızın azad olunması üzrə döyüş tapşırıqlarını öz canı və qanı bahasına yerinə yetirdi. Hərbi qulluqçularımız yüksək vətənpərvərlik, peşəkarlıq və müasir döyüşaparma qabiliyyəti nümayiş etdirərək, "dəmir yumruq"la erməni işğalçılarının başını əzdilər. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyətindən 66 nəfərin şəhid olması, 346 nəfərin isə yaralanması həm ağrı və kədər, həm də qürurlu, şərəfli salnamədir.

Ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı döyüş tapşırığını yerinə yetirərkən göstərdikləri qəhrəmanlıq nümunəsinə görə Daxili Qoşunların 4 nəfər hərbi qulluqçusu "Vətən Müharibəsi Qəhrəmanı" adı ilə təltif edildi. 39 nəfər "Zəfər", "Qarabağ", "Azərbaycan bayrağı", "Rəşadət" ordeni ilə mükafatlandırıldı, yüzlərlə hərbi qulluqçu, ümumilikdə, 1833 medala layiq görüldü.

Vətən müharibəsi dövründə Daxili Qoşunların maddi-texniki təminat, tibb xidmətlərinin hərbi qulluqçuları da döyüş bölgəsinə ezam olundular, öz sahələri üzrə qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəldilər. Səfərbərliyə cəlb edilənlər sırasında Daxili Qoşunların bir qrup ehtiyata buraxılmış hərbi qulluqçusu da vardı. Övladları və yaxın qohumları döyüşlərdə iştirak edərək şəhidlik zirvəsinə ucalan, habelə qazi olan Daxili Qoşunların veteranları da yetərincədir.

Bu qəhrəmanlarımızın missiyası heç də zəfərin əldə edilməsi ilə bitmədi. Onlar son 16 aydır işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyin təmin olunmasına da cavabdehdirlər. Nəzərə alaq ki, bu bölgədə təhlükəsizlik tədbirləri görülmədən bərpa-yenidənqurma işlərinin aparılması, dinc həyatın bərqərar olması, vətəndaşlarımızın məskunlaşması mümkün olmaz. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti polis əməkdaşları ilə birgə işğaldan azad olunmuş Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər, Xocavənd, Xocalı, Tərtər rayonlarının, eləcə də Şuşa şəhərinin ərazilərində ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunması, həyat təminatlı mühüm əhəmiyyətli obyektlərin mühafizəsi, terror, təxribat və digər qanunazidd fəaliyyətin qarşısının alınması, giriş-çıxışın xüsusi rejiminin tətbiqi üzrə xidməti tapşırıqları yerinə yetirir. Gündəlik olaraq, qeyd olunan istiqamətlərdə stasionar postlar və piyada marşrutlarında hərbi qulluqçular komendant xidmətinin aparılmasına cəlb edilirlər. Bununla yanaşı, onlara Şuşa şəhərinin müdafiəsində dayanmaq həvalə olunub.

Şəxsi heyətin işğaldan azad edilmiş ərazilərdə xidməti-döyüş fəaliyyəti çoxşaxəli olmaqla, hərbi qulluqçulardan yüksək peşəkarlıq, ayıq-sayıqlıq, qətiyyət və əzmkarlıq tələb edir. Hərbi qulluqçular qarşıya qoyulan tapşırıqları məsuliyyətlə yerinə yetirir, Ali Baş Komandanın etimadını ləyaqətlə doğruldurlar.

### Ali Baş Komandan Daxili Qoşunların döyüş hazırlığı səviyyəsindən razıdır

Xidməti-döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsinə şəxsi heyətin mükəmməl hazırlanması xüsusi əhəmiyyət kəsb edir. Bunun üçün döyüş təlimi prosesinin keyfiyyətli təşkili, onun məzmun və üsullarının davamlı olaraq təkmilləşdirilməsi, yeni texnika, silahlar, xüsusi vasitələrin xüsusiyyətlərinin praktiki mənimsənilməsi, fəaliyyət taktikası üzrə məşqlərin real şəraitə uyğun keçirilməsi peşəkarlıq vərdişlərinin formalaşmasına əsaslı zəmin yaradır.

Hər bir hərbi hissə və bölmənin, hərbi qulluqçunun gücünün onun döyüş qabiliyyətinə bağlı olduğunu söyləyən daxili işlər nazirinin müavini - Daxili Qoşunların komandanı general-leytenant Ş.Məmmədov qeyd edir ki, şəxsi heyətin döyüş təlimi prosesi komandanlığın xüsusi diqqət mərkəzindədir və ildən-ilə göstərilən sahədə yeniliklər tətbiq olunur: "Hazırda Daxili Qoşunların sərəncamında müasir standartlara cavab verən poliqon, təlim mərkəzləri və şəhərcikləri, idman zalları, atıcılıq tirləri, tədris vasitələri və ləvazimatları mövcuddur. Hərbi hissələrdə məşğələ sinifləri müasir tərtibata malikdir və lazımi texniki avadanlıqlarla təchiz edilib. Daxili Qoşunlarda döyüş təliminin öz xüsusiyyətləri var. Bu prosesdə Daxili Qoşunların vəzifələrindən irəli gələn praktiki fəaliyyətlərə əsas diqqət yönəldilir. Daxili Qoşunların taktikasının çoxşaxəli elementləri təlimlərdə məşq etdirilərək, ötən illərdə qazanılan təcrübə də nəzərə alınır. Müxtəlif bölmələrin yerinə yetirdikləri tapşırıqların xarakterinə uyğun olaraq, təlimlərdə onların döyüş hazırlığının yüksəldilməsi, qarşılıqlı dəstək və birgə fəaliyyət üsullarının təkmilləşdirilməsi xüsusi diqqət yetirilən məqamlardır. Döyüş təlimlərində şəxsi heyətin fiziki hazırlığının möhkəmləndirilməsinə, silahlardan sərrast atəş açmaq bacarıqlarının inkişaf etdirilməsinə, zirehli texnika, avtomobillərin idarə olunması məharətinin artırılmasına, çeviklik, dözümlülük, ahəngdarlıq, nizamlılıq vərdişlərinin aşılanmasına nail olunur".

Ötən illər ərzində Daxili Qoşunların maddi-texniki bazasının gücləndirilməsi istiqamətində müasir standartlar və qabaqcıl təcrübə nəzərə alınmaqla əhatəli və planlı tədbirlər həyata keçirilib. Şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzində olub. Qoşunların Bakı şəhərində, eləcə də regionlarda yerləşən hərbi hissələrində geniş yenidənqurma, əsaslı təmir və abadlıq işləri aparılıb, yeni qərargahlar, tibb məntəqələri, yeməkxanalar, kazarmalar, hamam-camaşırxana kompleksləri, anbarlar, idman zalları, təlim şəhərcikləri tikilib, hərbi qulluqçular üçün hərtərəfli şəraitə malik olan çoxmənzilli binalar, modul tipli yataqxanalar istifadəyə verilib.

Bu nailiyyətlər Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərdiyi xüsusi diqqət və qayğının nəticəsidir. İndiyədək Azərbaycan Prezidenti 11 dəfə Daxili Qoşunların müxtəlif bölgələrdəki hərbi hissələrində olub. Müzəffər Komandanın şəxsi heyətin döyüş hazırlığı ilə yanaşı, sosial-məişət şəraiti ilə də yaxından tanış olur, onların maddi-texniki təminatı ilə maraqlanır ki, bunlar da nəticə etibarilə hərbi qulluqçularımızın döyüş ruhunu yüksəldir. Hər bir səfər həm də yeni sosial, hərbi obyektin açılışı ilə əlamətdar olur. Mərhələlərlə və ardıcıl həyata keçirilən hərtərəfli quruculuq işləri nəticəsində Daxili Qoşunlar qarşısına qoyulmuş tapşırıqları yerinə yetirməyə qadir olan, müvafiq qanunla statusu müəyyən edilmiş hərbi birləşmə kimi dövlətimizin etibarlı dayaqlarından birinə çevrilib.

Daxili Qoşunların inkişafı və döyüş hazırlığı səviyyəsinin artırılması Ali Baş Komandan tərəfindən daim yüksək qiymətləndirilib. "Son illər ərzində Daxili Qoşunlar sürətli inkişaf etmişdir, çox yüksək səviyyədə peşəkarlıq, vətənpərvərlik var. Bu, bizim üçün çox böyük nailiyyətdir" - söyləyən Prezident İlham Əliyev onu da qeyd edib ki, "Azərbaycan dövləti, dövlətçiliyinin inkişafı və möhkəmləndirilməsi üçün Daxili Qoşunların xidməti yüksək səviyyədədir və məni qane edir".

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov da şərəfli xidmət yolu keçən, respublikanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şücaət və qəhrəmanlıq göstərmiş Daxili Qoşunların Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında formalaşaraq dövlətçiliyin sütunlarından birinə çevrildiyini vurğulayıb: "Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin əvəzsiz diqqəti və qayğısı sayəsində bu gün davamlı inkişafda olan Daxili Qoşunların döyüş hazırlığı, təchizatı, şəxsi heyətinin xidmət şəraiti, sosial müdafiəsi yüksək səviyyədədir. Öz andına sadiq olan hərbçilərimizin respublikada ictimai asayişin və daxili təhlükəsizliyin qorunmasında, silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində, bütövlükdə, qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının icrasında professionallığı və qətiyyəti özünü Vətən müharibəsi dövründə bir daha təsdiqləmişdir".

### Yeni hədəflər, müasir islahatlar

Daxili Qoşunların Komandanı vurğulayır ki, ötən dövrdə uğurlu xidməti fəaliyyətin mühüm göstəricilərindən biri də beynəlxalq hərbi əməkdaşlıq əlaqələridir: "Xarici həmkarlara aid qabaqcıl təcrübənin öyrənilməsi, hərbi qulluqçularımızın müasir texnologiyalara, yeni texnika, silah və xüsusi vasitələrin xüsusiyyətlərinə dərindən yiyələnmələri, bilik və bacarıqlarının beynəlxalq standartlara uyğunlaşdırılması, praktiki fəaliyyətlərə hazırlıqlarının yüksəldilməsi və təlim-təhsil prosesi standartlarının təkmilləşdirilməsi əsas məqsəddir. Daxili Qoşunlar tərəfindən beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə ikitərəfli münasibətlər çərçivəsində müxtəlif ölkələrin müvafiq hərbi qurumları ilə əməkdaşlıq əlaqələri qurulub. Yüzlərlə hərbi qulluqçu Türkiyə DİN-in Jandarm Baş Komandanlığının təlim-tədris mərkəzlərində ixtisas və təkmilləşdirmə kursları keçib, həmçinin qoşunların nümayəndələri ayrı-ayrı ölkə və xarici qurumlar tərəfindən təşkil olunan təhlükəsizlik məsələləri üzrə tədbirlərdə iştirak ediblər. Beynəlxalq hərbi əməkdaşlıq prosesi xidməti fəaliyyətdə yeniliklərə yol açır, peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsinə təkan verir. Dünyanın qabaqcıl ölkələrinin müvafiq güc strukturlarının təcrübəsinin öyrənilməsi, qarşılıqlı informasiya mübadiləsi xidməti vəzifələrin yerinə yetirilməsinə, təlimlərdə müasir standartların tətbiqinə real zəmin yaradır".

Beynəlxalq əhəmiyyətli tədbirlərin keçirildiyi əsas məkanlardan birinə çevrilən ölkəmizdə mühüm mədəniyyət, idman, humanitar, siyasət yönümlü tədbirlərin, sammitlərin təhlükəsizliyinin təmin olunması prosesində də Daxili Qoşunların şəxsi heyəti ön sırada olur. Pandemiya ilə bağlı elan edilən xüsusi karantin rejimində Daxili Qoşunların şəxsi heyətinin fədakarlığı xüsusilə diqqət çəkdi. Hərbi qulluqçular polis əməkdaşları ilə birgə şəhər və rayonlararası yollarda buraxılış rejiminə nəzarət etdi, yaşayış məntəqələrində postpatrul xidməti apardı, xüsusi səhiyyə müəssisələrinin, karantin obyektlərinin mühafizəsində dayandı. Vətən savaşı müddətində isə ön cəbhədə döyüşməklə yanaşı, ölkədə elan edilən hərbi vəziyyət dönəmində, komendant saatında vəziyyətə nəzarət də böyük peşəkarlıqla icra edildi.

Ağır sınaqlardan üzüağ çıxan Daxili Qoşunlar dövlətimiz, dövlətçiliyimiz əleyhinə təxribatlar törətmiş qüvvələrə qarşı dəfələrlə polis əməkdaşları ilə birgə barışmaz mübarizə aparmış, vətəndaşların əmin-amanlığını layiqincə qorumuşdur. Bu məqamları xüsusi vurğulayan Ş.Məmmədov qeyd edir ki, Daxili Qoşunların xidməti fəaliyyəti daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun daim diqqət mərkəzindədir: "Cənab nazirin şəxsi heyətə etimadı hərbi qulluqçularımızı layiqli xidmətə ruhlandıran mühüm amildir. İstər cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində, istərsə də mühüm dövlət obyektlərinin mühafizəsində şəxsi heyət müsbət nəticələr əldə etmişdir. Əlbəttə ki, bu uğurlar bilikli və bacarıqlı komandir heyətinin rəhbərliyi altında idarəçiliyin, yüksək döyüş hazırlığının və təlimlərin hesabına ərsəyə gəlmişdir. İnanıram ki, Daxili Qoşunların şəxsi heyəti bundan sonra da çiçəklənən Azərbaycanımızın mənafeyi naminə bütün vəzifələrin öhdəsindən layiqincə gələcək".

Ölkəmiz müasir inkişaf müstəvisinə yüksəldiyi bir vaxtda, həmçinin Vətən müharibəsinin reallıqları kontekstində Daxili Qoşunlar qarşısında duran vəzifələrin tam və keyfiyyətlə yerinə yetirilməsi istiqamətində yeni hədəflər müəyyən edir. Dünyada qloballaşma prosesinin sürətlənməsi, beynəlxalq inteqrasiyanın dərinləşməsi, müasir dövrün çağırışları fonunda daim təkmilləşən Daxili Qoşunlar döyüş və mənəvi-psixoloji hazırlığın yüksək səviyyədə qorunub saxlanılmasını, xidməti fəaliyyətdə peşəkarlığın artırılmasını təmin etmək məqsədilə islahatların yeni mərhələsini həyata keçirir.

Daxili Qoşunlarda bu gün ciddi nizam-intizam hökm sürür, şəxsi heyətin mənəvi-psixoloji durumu qənaətbəxşdir. Şəxsi heyət Prezidentə, dövlətə, xalqa məhəbbət və sədaqət ruhunda tərbiyə olunur. Hərbi hissələrin döyüş qabiliyyəti və döyüş ruhu kifayət qədər yüksəkdir.

Daxili Qoşunların keçdiyi yol bir daha sübut edir ki, şəxsi heyət həmişə xalqın əmin-amanlığının, ölkədaxili sabitliyin sadiq keşikçisi olaraq, respublikamızın ərazi bütövlüyünün bərpasında layiqincə iştirak edərək, işğalına son qoyulan torpaqlarımızın müdafiəsində qətiyyətlə dayanaraq, həmin bölgələrdə polis əməkdaşları ilə birgə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində yüksək peşəkarlıq göstərərək, dövlət əhəmiyyətli, mürəkkəb xidməti-döyüş tapşırıqlarının öhdəsindən cəsarətlə gəlir. Bu da Daxili Qoşunların cəmiyyətdə nüfuzunu artırır və vətəndaşlarımız tərəfindən rəğbətlə qarşılanır.

*Müzəffər Komandanın qəhrəman əsgərləri olan Daxili Qoşunların şəxsi heyəti yubileyini "Dəmir yumruğ"un əsas zərbə güclərindən biri kimi qeyd edir. Bu isə ən böyük mükafat, ən səmimi təltifdir...*

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***

# Avropa demokratiyasının növbəti qürubu

## Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi bəyanat yayıb

Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr Komitəsinin Avropa Parlamentinin 2022-ci il 10 mart tarixli qətnaməsinə dair bəyanat yayıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, bəyanatda martın 10-da Avropa Parlamentinin Azərbaycana qarşı növbəti qərəzli qətnamə qəbul etdiyi qeyd olunub. Bildirilib ki, Ermənistanın və Avropa Parlamentindəki erməni lobbisinin tamamilə yalan məlumatlarına əsaslanan, Azərbaycan torpaqlarının 30 illik işğalı dövründən irəli gələn reallıqları, o cümlədən bu torpaqlarda mədəni irsimizə qarşı törədilən vandallıq faktlarını təhrif edən, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini şübhə altına alan, regionda uzunmüddətli sülh və sabitliyin təmin olunması istiqamətindəki səylərini zədələyən bu qətnamə eyni zamanda özündə bir sıra təhlükəli məqamları ehtiva etməklə bəşəriyyətin dini, irqi ayrı-seçkiliyin və dözümsüzlüyün aradan qaldırılması səylərinə də kölgə salır. Beynəlxalq ictimaiyyəti aldatmaq məqsədi güdən bu qətnaməni birmənalı şəkildə “Avropa demokratiyasının növbəti qürubu” adlandırmaq olar. Avropa xalqlarının ayrı-ayrı nümayəndələrinin toplaşdığı Avropa Parlamentinin ümumbəşəri dəyərlərə etinasızlığı və laqeyd münasibəti ciddi suallar doğurur.

Avropa Parlamentinin bu qeyri-obyektiv qətnaməsini ətraflı şəkildə şərh etmək fikrindən uzaq olsaq da, bəzi məqamların xüsusi vurğulanması zəruridir.

İlk növbədə, qeyd olunmalıdır ki, Avropa Parlamentinin qətnaməsi Ermənistanın 30 illik işğal dövrü ərzində Azərbaycanın mədəni irsinə qarşı törətdiyi vandalizmi tamamilə inkar edir. İşğal dövrü Ermənistanın müharibə cinayətləri və insanlıq əleyhinə cinayətləri ilə müşayiət olunmuşdur. Ermənistan qəsdən şəhər və kəndləri dağıtmaqla yanaşı, Azərbaycan xalqının bu ərazilərdəki bütün mədəni irsini məhv edib. Dağıntıların miqyasını təsəvvür etmək belə çətindir. Çoxsaylı tarixi, mədəni və dini abidələr, arxeoloji qazıntı məkanları, kitabxanalar və muzeylər, muzey eksponatları, nadir əlyazmalar, məzarlıqlar sistemli şəkildə viran qoyulub və talanıb. Məscidlər yerləyeksan edilib, inək və donuz saxlanılan yerlərə çevrilərək, təhqir olunub. Yalnız İslam dininə aid abidələrə qarşı vəhşilik edilməyib. Alban və xristian kilsələri də dağıdılıb, onların üzərində arxitektur dəyişikliklər aparılmaqla erməniləşdirilməsinə cəhd göstərilib. Ermənistan bütün bunları etməklə yalnız bir məqsəd güdürdü: Azərbaycan xalqının bu torpaqlardakı izinin tamamilə silinməsi.

Azərbaycanın çoxsaylı çağırışlarına baxmayaraq, Ermənistan işğal dövründə UNESCO və digər ixtisaslaşmış beynəlxalq qurumların mədəni irsin vəziyyətinin qiymətləndirilməsi üçün bu ərazilərə səfərlərinin qarşısını alıb. Beynəlxalq qurumların qətiyyətsizliyi Ermənistanı əksinə, dağıntıların miqyasını daha da genişləndirməyə təşviq edib. Bütün bunlar isə Ermənistan tərəfindən beynəlxalq humanitar hüququn, o cümlədən 1954-cü il Haaqa Konvensiyasının və onun Protokollarının kobud şəkildə pozulmasıdır. Öz qətnaməsində UNESCO-ya dəfələrlə istinad edən, lakin qeyd olunan faktları inkar edən və Azərbaycanı UNESCO-nun missiyasını əngəlləməkdə ittiham edən Avropa Parlamentinin Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının nəticələri, mədəni irsinə qarşı törədilən vandallıqlara dair ötən illər ərzində bir dəfə də olsun məsələ qaldırmaması olduqca düşündürücüdür. Avropa Parlamentinin hazırkı qətnaməsi nəinki beynəlxalq humanitar hüququn prinsiplərinə, eyni zamanda mədəni və dini abidələrin dağıdılmasına qarşı Avropa İttifaqının özünün qəbul etdiyi prinsiplərə də ziddir.

Bir faktı da vurğulamaq lazımdır ki, cari ilin fevral ayının 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Prezident Emmanuel Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda keçirilmiş görüşün nəticəsi olaraq UNESCO missiyasının Azərbaycana və Ermənistana göndərilməsinə dair razılıq ifadə edib. Bu, Ermənistan ərazisində Azərbaycan xalqına məxsus mədəni irsin vəziyyətinin öyrənilməsi zərurətinin təsdiqidir. Avropa Parlamenti isə nədənsə bu məsələyə, ümumiyyətlə, toxunmur.

Avropa Parlamenti ermənilərə aid olduğunu iddia etdiyi mədəni abidələri qədim xristian irsinin və bəşəriyyətin ümumi irsinin bir hissəsi kimi təqdim edir. İşğal dövründə dağıdılmış və ciddi ziyan vurulmuş 67 məscidi, yerləyeksan edilmiş İslam mədəniyyəti abidələrini inkar edən düşüncə tərzi dini, irqi ayrı-seçkiliyi təşviq etməklə olduqca təhlükəli tendensiyalara rəvac verir. Ümumiyyətlə, qətnamədə Azərbaycanın mədəni irsi ifadəsinə heç bir yerdə rast gəlmək mümkün deyil.

Qətnamədə həmçinin Beynəlxalq Ədalət Məhkəməsinin 2021-ci ilin dekabr qərarının mahiyyəti təhrif edilərək bütövlükdə Ermənistan tərəfindən məhkəmə qarşısında qaldırılmış, lakin rədd edilmiş iddialara istinad olunur.

Ümumiyyətlə, Avropa Parlamentinin bu qətnaməsi Avropa İttifaqı rəhbərliyinin son dövrlərdə Cənubi Qafqazda sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunması istiqamətində nümayiş etdirdiyi xoşməramlı səylərə bütövlükdə ziddir.

Avropa Parlamenti artıq bir sıra faktları qəbul etməlidir.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın rəşadətli Ordusu 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğalına son qoyub və ərazi bütövlüyümüzü bərpa edib. Artıq Azərbaycan postmünaqişə dövründə geniş bərpa-quruculuq mərhələsinə qədəm qoyub. İşğaldan azad olunmuş ərazilərdəki bütün dini, mədəni abidələrə, o cümlədən xristian irsinə aid abidələrə dəymiş ziyanın müəyyən edilməsi, faktlaşdırılması və onların bərpası üzrə praktiki addımlar atılır.

Bu da təəccüblü deyil. Monoetnik Ermənistandan fərqli olaraq, Azərbaycan müxtəlif dinlərin, xalqların nümayəndələrinin əsrlər boyu sülh, ləyaqət, mehribanlıq şəraitində birgə yaşadığı multikultural və tolerant ölkədir. Azərbaycan ərazisində bütün dinlərin məbədləri, bütün mədəniyyət abidələri dövlət tərəfindən qorunur və bərpa olunur.

Avropa Parlamentinin bu qətnaməsi Azərbaycan xalqının yüksək milli, mənəvi və mədəni dəyərlərinə kölgə sala bilməyəcək adi bir kağız parçasıdır.

Biz Avropa Parlamentinin qərəzli şəkildə yalan məlumatlar yaymaq cəhdini şiddətlə qınayır və regionda normallaşma prosesinə ziyan vuracaq təxribatlardan çəkinməyə çağırırıq.

## Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət Heyəti Avropa Parlamentinə bəyanat ünvanlayıb

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət Heyəti Avropa Parlamentinə etiraz bəyanatı ünvanlayıb.

Respublika Veteranlar Təşkilatından AZƏRTAC-a daxil olan bəyanatda Avropa Parlamentinin erməni yalanlarına əsasən hazırlanan və Qarabağda ermənilərə məxsus tarixi-mədəni abidələrinin dağıdılması ilə bağlı yanlış iddialar kəskin şəkildə tənqid edilib və pislənilib. Bəyanatda deyilir: “Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət Heyəti olaraq, Avropa Parlamentinin heç bir araşdırma aparmadan, real faktlara söykənmədən hazırladığı qətnaməni pisləyir, bunu qərəzli və tamamilə qeyri-obyektiv hesab edirik. Bildiririk ki, Qarabağda ermənilərə məxsus tarixi-mədəni abidələrin, qəbiristanlıqların dağıdılması, məhv edilməsi ilə bağlı iddiaların heç bir əsası yoxdur və bu cür iddialar mövcud reallığı əks etdirmir. Əksinə, Azərbaycan dövləti və xalqı tolerantlıq və multikultural dəyərlərinə sadiq qalaraq ölkə ərazisində dilindən, dinindən asılı olmayaraq bütün xalqlara, mədəniyyət və sivilizasiyalara məxsus hər bir abidəni həssaslıqla qoruyur, həmin abidələrin zəngin tariximizin bir hissəsi olaraq gələcək nəsillərə çatdırılmasına böyük diqqət göstərir. Bu baxımdan Azərbaycanın, guya, işğaldan azad edilən torpaqlarımızda ermənilərə məxsus abidələrə, mədəniyyət nümunələrinə zərər vurması ilə bağlı iddialar reallıqdan uzaqdır və beynəlxalq ictimaiyyətin diqqətini əsl həqiqətdən uzaqlaşdırmağa xidmət edir.

Avropa Parlamenti və bu quruma üzv olan dövlətlərin diqqətinə çatdırırıq ki, Azərbaycandan fərqli olaraq Ermənistan tərəfi 30 illik işğal dönəmində xalqımıza məxsus tarixi, mədəni, dini abidələrin məhv edilməsi, yer üzündən silinməsi siyasətini dövlət siyasəti səviyyəsində - sistemli surətdə həyata keçirib, xalqımıza qarşı, sözün həqiqi mənasında, həm də mədəni soyqırımı həyata keçirib. Vaxtilə erməni işğalı altında qalan rayonlarımızda ümumi sayı minlərlə hesablanan məscidlərin, dini abidələrin, mədəniyyət və incəsənət nümunələrinin, tarixi abidələrin tamamilə dağıdılması faktı buna ən böyük nümunədir. Hansı ki, Azərbaycan tərəfinin əlində bütün bunları sübut edən saysız-hesabsız foto və video faktlar mövcuddur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə bütün beynəlxalq təşkilatları işğaldan azad olunan ərazilərə səfər etməyə, bu ərazilərdə faktaraşdırma missiyalarında iştirak etməyə səsləyib. Lakin təəssüflər olsun ki, Avropa Parlamenti, o cümlədən bu qurumda təmsil olunan dövlətlər bu prosesdə aktivlik sərgiləmək, həqiqəti öz gözləri ilə görmək imkanından yararlanmaq istəmirlər. Halbuki işğaldan azad edilən Azərbaycan torpaqlarına bu cür səfərlərin təşkili hər bir səfər iştirakçısına əsl gerçəkliyin nədən ibarət olduğu, kiminkimə qarşı mədəni soyqırımı həyata keçirdiyini şərhsiz-izahsız göstərə bilər.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı olaraq ümid edirik ki, Avropa Parlamenti birtərəfli qaydada - yalnız erməni tərəfinin böhtan xarakterli iddiaları əsasında hazırlanan bu qətnamədən imtina edəcək, Qarabağ və ətraf rayonlarda erməni faşizmi tərəfindən viran edilən saysız-hesabsız mədəniyyət abidələrini, dini-tarixi memarlıq əsərlərini “görəcək”, bu tarixi səhvini erməni vandalizmini ifşa edən qətnamə və bəyanatlarla ən qısa zamanda düzəldəcəkdir!”

## Azərbaycan QHT-nin BƏYANATI

Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatları Avropa Parlamentinə etiraz bəyanatı ünvanlayıblar. AZƏRTAC bəyanatı təqdim edir: “Biz, QHT nümayəndələri beynəlxalq təşkilatlara və UNESCO-ya bir neçə dəfə müraciət edərək Qarabağda və Ermənistan ərazisində Azərbaycan xalqının irsinə qarşı bu ölkə tərəfindən həyata keçirilmiş mədəni soyqırımı haqqında məlumat vermişik. Məhz Ermənistanın apardığı təcavüzkar siyasət nəticəsində xalqımızın yüz illər tarixə malik mədəni irsi tamamilə yox olmaq təhlükəsi ilə üzləşib.

Azərbaycana qarşı olan ikili standartlar, irqçi xarakterli yanaşmalar və islamofobiya hər zaman bəzi beynəlxalq qurumların işinin ana xəttini təşkil etmişdir. Ötən gün erməni yalanlarına əsasən hazırlanan və Azərbaycanın işğaldan azad etdiyi ərazilərində ermənilərə məxsus tarixi-mədəni abidələrin dağıdılması ilə bağlı yalan faktları özündə ehtiva edən qətnamənin korrupsioner şəxslərin əllərində oyuncağa çevrilmiş Avropa Parlamenti tərəfindən qəbul olunması Azərbaycana qarşı növbəti riyakarlıqdır.

Avropa Parlamenti və bu quruma üzv olan dövlətlərin diqqətinə çatdırırıq ki, Azərbaycandan fərqli olaraq Ermənistan tərəfi 30 illik işğal dönəmində xalqımıza məxsus tarixi, mədəni, dini abidələrin məhv edilməsi, yer üzündən silinməsi siyasətini dövlət siyasəti səviyyəsində - sistemli surətdə həyata keçirib, xalqımıza qarşı, sözün həqiqi mənasında, həm də mədəni soyqırımı törədib. Ermənistan tərəfindən həyata keçirilmiş sözügedən mədəni soyqırımı azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmə siyasəti ilə müşayiət olunub. Belə ki, XX əsrin əvvəllərindən başlamış azərbaycanlıların əsrlər boyu öz doğma torpaqları olan bugünkü Ermənistan ərazisindən kütləvi deportasiyası nəticəsində Ermənistanda azərbaycanlı qalmayıb. Təkcə 1988-ci ildə həyata keçirilmiş sonuncu deportasiya nəticəsində 250 mindən çox azərbaycanlı öz doğma yurdlarından qovularaq qaçqına çevrilib. Beləliklə, Ermənistan məqsədyönlü şəkildə həm etnik, həm də mədəni soyqırımı siyasəti aparmaqla bu ərazilərin tarixi və əzəli sakinləri olan azərbaycanlıların izlərini hər yerdən silir, Azərbaycan xalqının mədəni irsini talayır, dağıdır, özününküləşdirir və mənşəyini dəyişdirir. Bununla bərabər, sözügedən ərazilərdəki qədim toponimlərin erməni adları ilə əvəzlənməsi də həyata keçirilib.

Uzun illərdir işğal altında olan Azərbaycan ərazilərindəki məscidlər, dini, tarixi, mədəni abidələr erməni vandalları tərəfindən dağıdılıb. Təbii ki, bu, onların dini, mədəni və tarixi dəyərlərə olan nifrətindən irəli gəlir. Fakt kimi işğal altında olmuş torpaqlarımızdakı məscidlərdən ermənilərin tövlə kimi istifadə etməsini də deyə bilərik. Əgər Ermənistan dini abidələrə, məscidlərə sayğı ilə yanaşmış olsaydı, işğal etdiyi Azərbaycan ərazilərindəki abidələri dağıtmazdı. Azərbaycan torpaqlarında təsbit olunan tarixi-dini abidələrin sayı 403-dür. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si ziyarətgahdır. Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Lakin bu sadalanan faktlara baxmayaraq, müəyyən beynəlxalq təşkilatlar, Avropa Parlamentinin üzvləri bu durumlara səssiz qalır və əksinə, Azərbaycan əleyhinə qətnamələr qəbul edirlər.

Beynəlxalq təşkilatlara ünvanlanmış əvvəlki müraciətlərimizdə tərəfimizdən bir çox dəqiq faktlar da təqdim edilib. Məsələn, digər faktlarla yanaşı, vurğulanıb ki, Ermənistanda yerləşən Göy məscid, Qala məscidi, Şah Abbas, Təpəbaşı, Zal Xan, Sərtib Xan, Hacı Novruzəli Bəy, Dəmirbulaq, Hacı Cəfər Bəy, Rəcəb Paşa, Məhəmməd Sərtib Xan, Hacı İnam məscidləri kimi 300-dən çox məscid XX əsrin əvvəllərində qəsdən dağıdılıb, özününküləşdirilib və ya digər məqsədlərlə istifadə edilib. Yalnız Dəmirbulaq məscidi 1988-ci ilədək öz təyinatı üzrə fəaliyyət göstərib, indi isə o, tamamilə dağıdılıb və yerində çoxmərtəbəli bina inşa edilib. Ermənistanda azərbaycanlılara məxsus Ağadədə, Aşağı Şorca, Güllübulaq, Saral qəbiristanlıqları kimi 500-dən çox məzarlıq məhv edilib. Qədim Göyçə mahalında, doğulduğu kənddə qəbirüstü abidəsi ucaldılmış Azərbaycan xalqının böyük şairi Aşıq Ələsgərin də qəbri dağıdılıb.

Ümumilikdə Ermənistan öz ərazisində Azərbaycan xalqına məxsus minlərlə mədəni irs abidəsini bilərəkdən dağıdıb. Bu, Ermənistanda Azərbaycan xalqına qarşı mövcud olan dözümsüzlüyün bariz nümunəsi olmaqla yanaşı, bütün insanlığa qarşı olan bir təhqirdir. Bütün bunlar onu göstərir ki, Ermənistan heç bir ümumbəşəri dəyərləri tanımır. Bütün bu qanunsuz əməllərin, on illərlə davam edən vandallıq əməllərinin cəzasız qalması isə dünya ictimaiyyətinə yanlış mesaj vermiş olur.

Dünya ictimaiyyəti bu kimi addımların Ermənistanda dövlət siyasəti olmasını anlamalı və buna qarşı addımlar atmalıdır. Bu məqsədlə beynəlxalq hüquqda mövcud instrumentlər də istifadə edilməlidir. Belə ki, mədəni abidələrin qəsdən dağıdılması, onların mənsubiyyətinin dəyişdirilməsi və özününküləşdirilməsi beynəlxalq humanitar hüququn, xüsusən də 1949-cu il Cenevrə konvensiyalarının, UNESCO-nun 1954 və 1970-ci il konvensiyalarının kobud şəkildə pozulmasıdır. Bunlar müharibə cinayətləridir. BMT Təhlükəsizlik Şurasının 2017-ci ildə qəbul etdiyi tarixi 2347 saylı tarixi qətnaməsinin də müəyyən etdiyi kimi, mədəni irsin qəsdən dağıdılması, həmçinin sülh və təhlükəsizlik məsələsidir.

Biz, Azərbaycanda fəaliyyət göstərən QHT-lər ölkəmizlə bağlı qərəzli və qeyri-obyektiv fikirləri birmənalı şəkildə rədd edir və Avropa Parlamentindən Azərbaycana qarşı qəbul olunmuş bu ədalətsiz qətnaməni ləğv etməyi tələb edirik.

1. Rauf Zeyni - Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu
2. İlqar Orucov - “Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyəti” İctimai Birliyi
3. Umud Mirzəyev - Beynəlxalq Avrasiya Mətbuat Fondu
4. Əziz Ələkbərli - Azərbaycan Qaçqınlar Cəmiyyəti
5. Bahar Qasımova - Azərbaycan Qadınları Respublika Cəmiyyəti
6. Ramil İsgəndərli - Hüquqi Təhlil və Araşdırmalar İctimai Birliyi
7. Faiq İsmayılov - Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı
8. Fatma Səttarova - Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı
9. Səltənət Qocamanlı - “İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi” İctimai Birliyi
10. Novella Cəfərova - “D.Əliyeva adına Azərbaycan Qadınlarının Hüquqlarının Müdafiə Cəmiyyəti” İctimai Birliyi
11. Səadət Bənənyarlı - “Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsi” İctimai Birliyi
12. Şəlalə Həsənova - İctimaiyyətlə Əlaqələrin İnkişafına Kömək İctimai Birliyi
13. Ayaz Mirzəyev - “Azərbaycan Jurnalistlər Şəbəkəsi İctimai Birliyi”
14. Şəhla Nağıyeva - “Sönməz Məşəl” Mədəni Əlaqələr İctimai Birliyi
15. Mariya Hüseynova - “Azərbaycan-Bolqarıstan Dostluğunun İnkişafına Yardım” İctimai Birliyi
16. Fərid Şahbazlı - İslahatçı Gənclər İctimai Birliyi
17. Yusif Ağayev - “Dostluq” Gənclərin Əlaqələndirmə Mərkəzi İctimai Birliyi
18. Cəsarət Hüseynzadə - “İnformasiya Təşəbbüslərinə Dəstək” İctimai Birliyi
19. Nəsiman Yaqublu - “Tarix və Mətbuat Araşdırmalarına Dəstək” İctimai Birliyi
20. Telman İsa - “Aktor” İctimai və Sosial Tədqiqatlar İctimai Birliyi
21. Vüsalə Hüseynli - “İslahatçı Qadınlar və İnnovasiyalar” İctimai Birliyi
22. Əhməd Abbasbəyli - “Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı” İctimai Birliyi
23. Fuad Abbasov - “Misra” informasiya mübadiləsi və təşəbbüsləri İctimai Birliyi
24. Fuad Hüseynzadə - “Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi” İctimai Birliyi
25. Niyaməddin Orduxanlı - “Bələdiyyələrin İnkişafına Yardım” İctimai Birliyi
26. Aqil Ələsgər - “Qızılbaş” Gəncləri Maarifləndirmə İctimai Birliyi
27. Ceyhun Musaoğlu - “Jurnalist Ekspert Mərkəzi” İctimai Birliyi
28. Aqil Camal - “Ortaq Dəyərlər” İctimai Birliyi
29. Hafiz Səfixanov “Minalar Əleyhinə Azərbaycan Kampaniyası” İctimai Birliyi
30. Mehri Xanbabayeva - “Azərbaycan Tarixçiləri” İctimai Birliyi
31. Anar Xəlilov - “Sağlam İnkişaf və Maarifləndirmə” İctimai Birliyi
32. Ziba Nəbiyeva - “İnkişafa Doğru Qadın Təşəbbüsü” İctimai Birliyi
33. Ayaz Hüseynov - “Hemofiliyalı Xəstələr” İctimai Birliyi
34. Fuad Əsgərov - “Qan Donorları Assosiasiyası” İctimai Birliyi
35. Könül Ağayeva - Rəqəmsal İnkişaf İctimai Birliyi
36. Ramil Abbasov - “Spektr” Sosial-İqtisadi Araşdırmalar və İnkişaf İctimai Birliyi
37. Müşviq Ələsgərli - “Mediada İnnovativ Təşəbbüslərə Dəstək” İctimai Birliyi
38. Elçin Mirzəbəyli “Bakı Natiqlik Məktəbi” İctimai Birliyi
39. Xatirə Vəliyeva - “Xankəndi” Məcburi Köçkünlərə Dəstək İctimai Birliyi
40. Xalid Kazımov - Regional İnsan Hüquqları və Media Mərkəzi İctimai Birliyi
41. Şahin Rəhmanlı - “İrəli” İctimai Birliyi
42. Elşad Məmmədli - “Vətəndaş Maarifləndirilməsi” İctimai Birliyi
43. Elvin Talışınski - “Elin Səsi” Milli-Mənəvi Dəyərlərimizin Qorunması İctimai Birliyi
44. Cavid Şahverdiyev - Azərbaycan Demokratik İslahatların İnkişafı Mərkəzi
45. Kəmalə Ağazadə - “Azərbaycan Uşaqları” İctimai Birliyi
46. Toğrul Allahverdili - “Gənclərin Təşəbbüsünə və İnkişafına dəstək” İctimai Birliyi
47. Əfsələddin Ağalarov - “Gəncliyin Sosial-İqtisadi İnkişafına Yardım” İctimai Birliyi
48. Zülfiyyə Nuriyeva - “Sosial, iqtisadi və kənd təsərrüfatının inkişafına dəstək” İctimai Birliyi
49. Məleykə Əlizadə - “Gəncə Regional Qadın Mərkəzi” İctimai Birliyi
50. Samirə Mustafayeva - “Azad Həmfikirlər” Gənclərin Maarifləndirilməsi İctimai Birliyi
51. Qalib Nəbiyev - “Qəbələ Regional Gənclərin Resurs Mərkəzi” İctimai Birliyi
52. Yadigar Məmmədli - “Azərbaycan Demokratik Jurnalistlər Liqası” İctimai Birliyi
53. Samir Mehdizadə - “Təhsil Şurası” İctimai Birliyi”.

## Yalan və böhtana əsaslanan ədalətsiz fəaliyyət

*Əvvəli 1-ci səh.*

### Dünyanın şahidlik etdiyi həqiqətə göz yuman təşkilat

Avropa Parlamenti Azərbaycana qarşı qərəzli yanaşmasını bu gün də davam etdirir. Parlamentin martın 10-da plenar iclas keçirərək, Qarabağda, guya, erməni mədəni irsinin “məhv edilməsi” ilə bağlı müzakirələr aparması bunun daha bir təsdiqidir.

Yalan, böhtan və riyakarlığa sadiqliyin bu səviyyədə nümayişi adamı dəhşətə gətirir. İşğalçıya “gözyaşı” axıtması, qəsbkara qahmar çıxıb dəstəkləməsi, onun barbar, vandal əməllərini “görməməsi”, ən nəhayət, Ermənistanın 30 il ərzində Azərbaycana qarşı faşizm siyasəti yürütməsi bu qurumun fəaliyyət prinsipləri barədə aydın təsəvvür yaradır.

Qətnamədə iddia olunur ki, Azərbaycan Qarabağda “erməni mədəni irsini dağıdır”. Hətta Azərbaycanın digər ərazilərində də, guya, eyni addımların atıldığı iddia olunur. Qətnamənin mətnində yer alan ifadələr, irəli sürülən ittihamlar o qədər absurd və yalandır ki, bunu ancaq illərdir dünyanı öz yalanlarına dolayan və dünyanın da nədənsə həvəslə yalanlarına “aldandığı” ermənilər yaza bilərdilər.

Elə Avropa Parlamentinin qətnaməsini də avroparlamentarilər yox, erməni yalan maşınının hazırladığını əminliklə deyə bilərik. Sirr deyil ki, Azərbaycana qarşı qərəzli, hətta düşmən mövqe sərgiləyən bu qurum erməni lobbisinin əsirinə çevrilib.

Real vəziyyət isə budur ki, müharibədən sonra Azərbaycana gəlib işğaldan azad edilən torpaqlara səfər edən bütün beynəlxalq təşkilatların nümayəndələri, hökumət və dövlət başçıları erməni vandalizminə şahidlik ediblər. Ərazilərdə erməni faşizmi tərəfindən bir kəndin, bir şəhərin belə salamat saxlanılmadığının, maddi-mədəni abidələrimizin yerləyeksan edildiyinin, təbii sərvətlərimizin talandığını gözləri ilə görüblər. Əcnəbi qonaqlar, jurnalistlər, eyni zamanda qəsbkarın bu torpaqları başdan-başa minalayaraq “barıt çəlləyinə” çevirməsini də görüblər. Yüzlərlə əcnəbi jurnalist, bloqçular işğaldan azad olunmuş ərazilərimizdə dağıdılan mədəni-dini abidələrdən reportajlar hazırlayıb dünyaya təqdim ediblər. Bu faktları Avropa Parlamentinin bütün üzvləri də görüb və izləyiblər.

### Erməni lobbisi Avropa Parlamentinin tribunasını zəbt edib

Göründüyü kimi, Avropa Parlamenti erməni maraqlarının yuvasına çevrilib. Qətnamənin müəlliflərindən biri olan hollandiyalı deputat Peter Van Dalen ermənipərəstliyi ilə məşhurdur. Həmin şəxs 44 günlük müharibə dövründə də “canfəşanlığı” ilə seçilirdi. O, AP-nin tribunasından alovlu çıxışları ilə işğalçı Ermənistanı müdafiə edir, Azərbaycana qarşı erməni leksikonu ilə “türklərin hücumu dayandırılmalıdır” çağırışları səsləndirirdi. Amma ədalət öz yerini tapdı və Azərbaycan torpaqlarını əsarətdən qurtardı. Lakin hər kəsə bəlli oldu ki, erməni lobbisi Avropa Parlamentinin tribunasını zəbt edib.

Bu günlərdə Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun BMT-nin Baş katibi Antonio Quterreşə işğaldan azad edilmiş Xocavənd rayonunun Edilli kəndi və Füzuli şəhərində kütləvi məzarlıqların aşkar edilməsi barədə məktubu BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi yayılıb. Deməli, dünya erməni vandalizmindən danışdığı halda AP özünü “məzlum xalq” kimi göstərən erməniləri müdafiə etməklə əsl ermənipərəst mövqeyini ortaya qoyur. Bəşəriyyət iki ildir ki, erməni barbarlığına canlı şahidlik edir. İşğaldan azad olunmuş torpaqlarımızda dağıdılan dini, mədəni abidələr, məscidlərin durumu dünyaya nümayiş etdirilir. Hər rayonda demək olar ki, kütləvi məzarlıqlar aşkarlanır. Hansı ki, o məzarlıqlar ermənilər tərəfindən törədilən qətliamların təsdiqidir. Bunu necə gizlətmək olar.

Xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Baş katibi Antonio Quterreşə işğaldan azad edilmiş Xocavənd rayonunun Edilli kəndi və Füzuli şəhərində kütləvi məzarlıqların aşkar edilməsi barədə məktubunda Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4000-dək azərbaycanlının taleyinə aydınlıq gətirilməsi məsələsinə bir daha diqqət çəkib. Bildirilib ki, şahidlərin ifadələri əsasında aparılmış axtarış-araşdırma tədbirləri nəticəsində Azərbaycanın işğaldan azad edilmiş Xocavənd rayonunun Edilli kəndində və Füzuli şəhəri ərazisində kütləvi məzarlıqlar aşkar edilib. 1990-cı illərdən bəri itkin düşmüş 6 və ya 7 azərbaycanlıya məxsus olduğu ehtimal edilən meyit qalıqları tibbi-genetik müayinədən keçirilməsi məqsədilə tədqiqat qrupu tərəfindən ekshumasiya edilərək toplanılıb. Erməni əsirliyində olmuş Azərbaycan vətəndaşları və hərbçiləri ifadələrində bildiriblər ki, onlarla azərbaycanlının cəsədləri işgəncəyə, təhqirə və qeyri-insani hərəkətlərə məruz qalaraq hərbi yük maşınlarında daşınıb və qeyd olunan ərazidə basdırılıb. Müvafiq dövlət orqanları şahidlərin verdikləri ifadələr və digər axtarış materialları əsasında təxmin edirlər ki, aşkar olunmuş meyit qalıqları qeyd olunan ərazidə dəfn edilmiş şəxslərin yalnız cüzi bir hissəsini təşkil edir və beləliklə, hazırda digər məzar yerlərinin axtarışı istiqamətində tədbirlər davam etdirilir.

Diqqətə çatdırılıb ki, əsir-girovluqda olmuş azərbaycanlıların məcburi şəkildə daşınması və meyitlərin basdırılması özü-özlüyündə Ermənistan silahlı qüvvələrinin və onların əlaltılarının törətdikləri cinayətlərin qəddarlığından və amansızlığından xəbər verir. Cinayətkarlar əsir-girovluqda olmuş onlarla insanın ölümü ilə nəticələnən qəddar hərəkətlər və işgəncələrlə yanaşı, digər ciddi müharibə cinayətləri də törədiblər ki, bu da münaqişə zamanı cəsədlərin ləyaqətlə dəfn olunması, məzarlarına hörmətlə yanaşılması, müvafiq şəkildə saxlanılması və işarələnməsi ilə bağlı beynəlxalq humanitar hüquq normalarının kobud şəkildə pozulmasıdır.

### Dünya əsl həqiqətə şahidlik edir

Belə faktların artdığı ərəfədə cinayətkarlar hələ də cəzalandırılmayıb. Ermənistanın, onun agentləri və əlaltıları tərəfindən törədilmiş müharibə cinayətləri və insanlığa qarşı cinayətlərin araşdırılması istiqamətində hələ də heç bir addım atılmayıb. Narahatlıq doğuran məqam həm də ondan ibarətdir ki, Azərbaycanın bununla bağlı çağırışlarına və Ermənistan tərəfi ilə, o cümlədən ən yüksək səviyyədə davamlı müzakirələrin aparılmasına baxmayaraq, rəsmi Yerevan məzarların, kütləvi qəbiristanlıqların yerinin müəyyən olunması və ya itkin düşmüş azərbaycanlıların taleyinin aydınlaşdırılması ilə bağlı məsələyə aydınlıq gətirəcək hər hansı informasiyanın təmin olunması ilə bağlı əməkdaşlıq etməkdən boyun qaçırır.

Qeyd edək ki, 1993-cü ildə baş verən Başlıbel faciəsi də belə faktlardan biridir. 24 aprel 2021-ci ildə məhkəmənin meyitlərin ekshumasiyası haqqında qərarına əsasən Kəlbəcər rayonunun Başlıbel kəndində müvafiq istintaq hərəkətləri keçirilərək, 50 sm dərinlikdə torpağa basdırılmış, kəskin çürüməyə məruz qalaraq skeletləşmiş 12 nəfərin meyitlərinin qalıqları aşkar edilib.

Bütün bunlar tarixi faktlardır. Dünya erməni rəzilliyinə, erməni barbarlığına şahidlik etdiyi halda Avropa Parlamenti kimlərinsə gözünə pərdə tutmaq istəyir. Amma bəşəriyyət kimin haqlı olduğunu yaxşı bilir. Belə qərəzli, ədalətsiz qətnamələrlə Azərbaycana qara yaxmaq, təzyiq göstərmək mümkün deyil. Belə güclü ölkə üçün o kağız parçasının heç bir əhəmiyyəti yoxdur.

Dünya 44 günlük savaşdan sonra bir həqiqətə şahidlik etdi - işğal dövründə Qarabağ və ətrafdakı 7 rayonun ərazisində Azərbaycanın 400-dən artıq tarixi-dini abidəsi məhv edilib. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si ziyarətgahdır. Ermənistanın dağıtdığı qəbiristanlıqların sayı 900-dan çoxdur. İnsanlar o torpaqlara qayıdarkən təkcə qoyub getdikləri evlərini yox, həm də doğmalarının məzarlarını da tapmadılar. Əsl vandalizm budur. AP bu vandalizmə münasibət bildirməlidir.

Amma Avropa Parlamenti və orada əyləşən erməni lobbisinin quluna çevrilən beynəlxalq dəyərləri deyil, aldıqları mükafatları əsas götürən parlamentarilər bu qədər faktın qarşısında bir dəfə də olsun Ermənistana irad belə tutmayıblar. Məqsədləri, niyyətləri hər kəsə bəllidir.

Azərbaycanın gündən-günə gücləndiyini, daha da qüdrətli dövlətə çevrildiyini görən erməni lobbisi istənilən çirkin əməllərə əl ata, hansısa qarayaxma kampaniyası ilə “sənəd” qəbul etdirə bilər. Lakin bu cür cəhdlərin hamısı bütün dövrlərdə bumeranq effekti verdiyi kimi, yenə də eyni ssenari yaşanacaq. Sözsüz ki, erməni lobbisi Azərbaycan diplomatiyası qarşısında acizdir. Çünki dünya əsl həqiqətləri görür və kimin kim olduğunu yaxşı ayırd edə bilir.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

XXVIII Dünya Çempionatı

# Azərbaycanlı akrobatlardan bürünc medal














Bakıda keçirilən Akrobatika Gimnastikası üzrə XXVIII Dünya Çempionatının birinci gününə yekun vurulub. Yarışda ölkəmizi gənclər arasında Avropa çempionları Daniel Abbasov və Murad Rəfiyev kişi cütlüklərin yarışında təmsil edirlər.

Qarışıq cütlüklər tərkibində isə beynəlxalq turnirlərin qalibləri Sabir Ağayev və Mehriban Salamova, Avropa çempionatının gümüş və bürünc mükafatçıları Ağasif Rəhimov və Raziyə Seyidli mübarizə aparırlar.

Birinci yarış gününün nəticələrinə əsasən idmançılarımız 3 finala vəsiqə qazanıblar.

Daniel Abbasov və Murad Rəfiyevdən ibarət kişi cütlüyümüz balans hərəkəti üzrə təsnifat mərhələsində 27,520 xalla üçüncü olub və finala vəsiqə əldə edib.

Medallar uğrunda keçirilən yarışlarda Daniel Abbasov və Murad Rəfiyevdən ibarət kişi cütlüyümüz bürünc medala sahib olub. Cütlüyümüzün qarışıq hərəkət üzrə final mərhələsində çıxışı 28,270 xalla qiymətləndirilib.

Yarışın qalibi ABŞ akrobatları olub - 28,400 xal. Qazaxıstanlı cütlük 28,330 xalla yarışı ikinci pillədə başa vurub.

Martın 13-də keçiriləcək finalda Azərbaycan komandası ilə yanaşı, ABŞ, Qazaxıstan, Portuqaliya, Almaniya və Özbəkistan gimnastları da medallar uğrunda yarışacaqlar.

Bu gün (martın 12-də) isə akrobatlarımız temp hərəkəti yarışının finalında ABŞ, Qazaxıstan, Portuqaliya, Almaniya və İspaniya idmançıları ilə mübarizəyə qoşulacaqlar.

Ağasif Rəhimov və Raziyə Seyidlidən ibarət cütlüyümüz balans hərəkətində 28,760 xalla birinci olub və finala vəsiqə qazanıblar. Sabir Ağayev və Mehriban Salamovadan ibarət digər cütlüyümüz isə 26,890 xalla səkkizinci pillədə qərarlaşıb.

Sabah (martın 13-də) təşkil olunacaq final mərhələsində Azərbaycan ilə yanaşı, Böyük Britaniya, Belçika, Almaniya, İsrail və Portuqaliya akrobatları da qələbə uğrunda mübarizə aparacaqlar.

Son olaraq qadın cütlüklərin temp hərəkətində finalçıların adlarına aydınlıq gətirilib. Təsnifat mərhələsində uğurla çıxış edən Portuqaliya, Macarıstan, Qazaxıstan, ABŞ, Böyük Britaniya və Avstraliya cütlükləri martın 13-də keçiriləcək finalda medallar uğrunda yarışacaqlar.

Yarışların ikinci günündə Ağasif Rəhimov və Raziyə Seyidlidən ibarət qarışıq cütlüyümüz dünya çempionatının finalına vəsiqə qazanıb.

Akrobatlarımız temp hərəkətində təsnifat mərhələsində hakimlərdən 29,090 xal alıb və ikinci olub. Bu nəticə ilə komandamız həlledici mərhələdə yer alıb.

Martın 12-də təşkil olunacaq final mərhələsində Azərbaycan ilə yanaşı, Böyük Britaniya, Belçika, İsrail, İspaniya və Portuqaliya cütlükləri də qələbə uğrunda yarışacaqlar.

Sabir Ağayev və Mehriban Salamovadan ibarət digər cütlüyümüz 26,340 xalla doqquzuncu olub və finala düşə bilməyib.

Dünən həm də komanda hesabında qaliblər müəyyənləşib. Belçika çempionatın qızıl medalına sahib olub. Portuqaliya idmançıları gümüş medal, Böyük Britaniya komandası bürünc medal qazanıblar.

Qeyd edək ki, çempionatda 17 ölkədən 170 gimnast iştirak edir. Martın 13-dək davam edəcək yarışlarda idmançılar qadın, kişi və qarışıq cütlüklər, eləcə də qadın və kişi qrupları proqramlarında balans, temp və qarışıq hərəkətlər üzrə mübarizə aparacaqlar.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***



## Portuqaliya gimnastları qızıl medal qazanıblar



Portuqaliya gimnastları Bakıda keçirilən Akrobatika üzrə XXVIII Dünya Çempionatında qızıl medal qazanıblar.

Qadın cütlüklərin qarışıq hərəkət üzrə final yarışında Portuqaliya təmsilçiləri 28,280 xalla birinci olublar.

Macarıstanlı cütlük 26,950 xalla gümüş, Qazaxıstan təmsilçiləri isə 26,790 xalla bürünc medalı boyunlarından asıblar.

Dörd gün davam edəcək yarışda idmançılar qadın, kişi və qarışıq cütlükləri, eləcə də qadın və kişi qrupları proqramlarında balans, temp və qarışıq hərəkətlər üzrə çıxış edəcəklər.

Xatırladaq ki, 2018-ci ildə Azərbaycan ilk dəfə akrobatika gimnastikası üzrə dünya kuboku turnirinə, bu il martın 3-dən 6-dək isə 12-ci dünya yaş qrupları yarışlarına evsahibliyi edib.

## Belçika gimnastları üçüncü dəfə fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar

Bakıda keçirilən akrobatika gimnastikası üzrə 28-ci dünya çempionatında qadın qrupların qarışıq hərəkətdə qalibləri müəyyənləşib. Belçika təmsilçiləri 29,820 xalla bütün rəqiblərini qabaqlayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Portuqaliya gimnastları 28,780 xalla çempionatı ikinci, ABŞ idmançıları (28,140) üçüncü pillədə başa vurublar.

Qeyd edək ki, Belçika gimnastları komanda hesabında da dünya çempionatının qızıl medalına sahib olublar.

Ağasif Rəhimov və Raziyə Seyidlidən ibarət cütlüyümüz Bakıda keçirilən akrobatika gimnastikası üzrə 28-ci dünya çempionatında qarışıq hərəkətdə beşinci olub. Təmsilçilərimizin çıxışı 28,670 xalla qiymətləndirilib.

Fəxri kürsünün ən yüksək pilləsində 29,110 xalla Belçika cütlüyü yer alıb. Böyük Britaniya komandası 29,030 xalla gümüş, almaniyalı gimnastlar isə 28,890 xalla bürünc medala sahib olublar.

Qeyd edək ki, bu, Belçika millisinin dünya çempionatında qazandığı üçüncü qızıl medaldır. Belə ki, belçikalı gimnastlar komanda hesabında və qadın qrupların qarışıq hərəkətində də birinci pillədə yer alıblar.




AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

## Peşə və ali təhsil müəssisələri üçün elan edilmiş təqaüd proqramlarının qalibləri mükafatlandırılıb





Martın 10-da "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) peşə və ali təhsil müəssisələri üçün elan etdiyi təqaüd proqramı müsabiqələrinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Mərasimdə təhsil naziri Emin Əmrullayev, "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, Peşə Təhsili üzrə Dövlət Agentliyinin (PTDA) direktor müavini, direktor vəzifəsini icra edən Ceyhun Kərəmov, eləcə də ali təhsil müəssisələrinin rektorları və müsabiqə qalibləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov "AzerGold" təqaüdünü qazanmış tələbələri təbrik edib, onlara təhsil və karyera həyatında uğurlar arzu edib. İdarə Heyətinin sədri təqaüd proqramları haqqında ətraflı bəhs edərək, layihənin cəmiyyətin orta və uzunmüddətli strategiyası çərçivəsində müəyyən edilmiş kadr ehtiyacları üzrə resursların zamanında cəlb olunması planı çərçivəsində ötən ilin sonlarından etibarən həyata keçirildiyini qeyd edib. Bildirilib ki, sənaye və dağ-mədən istiqaməti üzrə təhsil alan tələbələri əhatə edən layihənin əsas məqsədi təhsilə marağın daha da artırılması, istedadlı tələbələrin potensial bilik və bacarıqlarının real iş yerlərində aşkar edilməsidir.

Z.İbrahimov həmçinin səhmdar cəmiyyətin Azərbaycanda fəaliyyət göstərən bir sıra ali və peşə təhsili məktəblərinə kadr hazırlığı sahəsində gördüyü işlərdən bəhs edib. Sədr mütəxəssislərin ixtisas biliklərinin artırılması, təhsil, elm, istehsalat və birgə təhsil proqramları sahəsində qarşılıqlı maraq doğuran əməkdaşlığın yaradılması məqsədilə 8 yerli təhsil müəssisəsi ilə əməkdaşlıq memorandumu və protokolu çərçivəsində işlər görüldüyünü bildirib. 2017-ci ildə ilk olaraq Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti ilə memorandum imzalanıb. 2018-ci ildə Azərbaycan Diplomatik Akademiyası, 2019-cu ildən isə Azərbaycan Dövlət Aqrar Universiteti, Azərbaycan Texnologiya Universiteti və Bakı Dövlət Universiteti ilə əməkdaşlığa start verilib. Ötən ildən isə Azərbaycan Texniki Universiteti və Bakı Ali Neft Məktəbi ilə əməkdaşlığa başlanılıb.

"AzerGold" QSC-nin İdarə Heyətinin sədri bildirib ki, ali məktəblərlə əldə olunmuş razılaşmalara uyğun olaraq, müvafiq peşə-ixtisas sahəsi üzrə təhsil alan tələbələrin cəmiyyətin Daşkəsən rayonunda yerləşən Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsinə mütəmadi səfərləri təşkil olunur. Beləliklə, ali məktəblərdə elmi-nəzəri biliklərə yiyələnən tələbələr əyani surətdə istehsalat təcrübəsinə də yiyələnmiş olurlar. Bununla yanaşı, səhmdar cəmiyyətin mütəxəssisləri tələbələrə mühazirələr oxuyur, ustad dərsləri, eləcə də müxtəlif müsabiqələr, stimullaşdırıcı tədbirlər həyata keçirirlər. Elan edilmiş müvafiq vakansiyalara uyğun işçilərin cəlb edilməsində təcrübə proqramlarında iştirak etmiş məzunlara üstünlük verilir.

Təhsil naziri Emin Əmrullayev peşə sahəsində "AzerGold" QSC ilə mövcud əməkdaşlığın əhəmiyyətinə toxunub. Nazir bildirib ki, təqaüd proqramının tətbiqi gənclər üçün stimul kimi qiymətləndirilə bilər. O, həmçinin işəgötürənlərin peşə təhsili sisteminə cəlb edilməsi, kadr hazırlığının işəgötürənlərin tələblərinə uyğun aparılmasının zəruriliyindən danışıb. Emin Əmrullayev çıxışının sonunda təqaüd proqramını qazanmış tələbələri təbrik edib və onlara uğurlar arzulayıb.

Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktor müavini, direktor vəzifəsini icra edən Ceyhun Kərəmov da "AzerGold" QSC ilə PTDA arasında mövcud əməkdaşlıqdan danışıb. Ceyhun Kərəmov deyib ki, 2021-ci ildə imzalanmış əməkdaşlığa dair fəaliyyət planına uyğun olaraq həyata keçirilən təqaüd proqramına Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi və Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzindən ümumilikdə 56 tələbə müraciət edib. Ceyhun Kərəmov əlavə edib ki, "AzerGold" QSC-nin əməkdaşları bir neçə peşə təhsil müəssisəsinin müəllim heyəti üçün ixtisasartırma təlimləri keçirib və onların şirkətin istehsalat sahələrinə səfəri təşkil edilib. Cari ildə əməkdaşlıq çərçivəsində yeni təhsil proqramlarının və tədris resurslarının hazırlanması, maddi-texniki bazanın müasirləşdirilməsi nəzərdə tutulub.

Tədbirdə qeyd edilib ki, ali təhsil müəssisələrindən 9, peşə təhsili müəssisələrindən isə 18 tələbə "AzerGold" təqaüdünün qalibi olub. Proqram çərçivəsində tələbələrin sosial müdafiəsinə dəstək məqsədi ilə 27 qalibin hər biri üçün 9 ay müddətində ümumilikdə 1800 AZN məbləğində təqaüdün verilməsinə artıq başlanılıb. Proqramda iştirak etmiş tələbələrin gələcəkdə müvafiq vəzifələr üzrə işlə təmin edilməsi də nəzərdə tutulur.

Daha sonra təqaüd proqramını qazanmış tələbələrin təmsil olunduğu ali məktəblər - Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Texniki Universiteti və Bakı Dövlət Universitetinin rektorları çıxış edərək "AzerGold" arasında imzalanmış anlaşma memorandumu çərçivəsində görüləcək işlər və ali təhsil müəssisələri üçün elan edilmiş təqaüd proqramının əhəmiyyəti barədə çıxışlar ediblər.

Sonda təqaüd proqramını qazanmış tələbələrə sertifikat və xatirə hədiyyələri təqdim olunub.

# Beynəlxalq aləm

## İtaliyada elektriklə işləyən avtomobil alanlara 6 min avroyadək dövlət dəstəyi veriləcək



İtaliyada avtomobil sənayesini dəstəkləmək üçün elektriklə işləyən yeni avtomobil alanlara 6 min avroyadək güzəştlər tətbiq olunacaq.

Dəstək mexanizmi təkcə elektriklə işləyən avtomobillərə deyil, həm də hibrid (PHEV) və ən son "Avro 6" emissiya texnologiyasına malik daxili yanma mühərrikli avtomobilləri əhatə edəcək.

Belə ki, elektriklə işləyən avtomobilin 6 min avroluq təşviq paketinin əhatə dairəsinə düşməsi üçün onun satış qiyməti maksimum 35 min avro olmalıdır. Hibrid avtomobillər üçün isə 2500 avro güzəşt nəzərdə tutulur ki, bu avtomobillərin də satış qiyməti 45 min avroya qədər olmalıdır.

Qeyd edək ki, İtaliya hökuməti avtomobil sənayesini dəstəkləmək üçün 2030-cu ilə qədər ümumilikdə 8,7 milyard avroluq büdcə ayırıb. Həmin vəsaitin 700 milyon avrosu bu il üçün nəzərdə tutulub.

## Son 12 ayda ABŞ-da inflyasiya 40 illik maksimum həddə çatıb

Birləşmiş Ştatlarda illik inflyasiya göstəricisi son 40 ildə görünməmiş həddə çatıb. Bunun bir sıra səbəbləri var.

İstehlak qiymətlərinin aylıq indeksi son 12 ayda inflyasiyanın 7,9 faiz artmasını təsdiq edir. Bu, 1982-ci ildən bəri 12 ay ərzində ən kəskin artımdır. Nazirliyin məlumatına görə, 2022-ci ilin yanvar-fevral aylarında inflyasiya 0,8 faiz artıb. Ərzaq məhsullarının və enerji daşıyıcılarının qiymətləri nəzərə alınmasa, inflyasiya son 12 ayda 6,4 faiz artıb. 2021-ci ilin fevral ayından bəri enerji istehlakı indeksi 25,6 faiz, bu ilin yanvar ayı ilə müqayisədə 3,5 faiz artıb.

Analitiklər gələn ay enerji indeksinin yenidən artacağını gözləyirlər, çünki sonuncu hesabatda Ukrayna müharibəsi və bu münaqişənin benzinin qiymətinə təsiri nəzərə alınmayıb. Amerika Avtomobil Assosiasiyasının martın 10-da yayılmış bəyanatında bildirilir ki, Birləşmiş Ştatlarda benzinin qiymətinin orta milli göstəricisi 1 qallon üçün 4,32 dollara bərabərdir. Bu, o deməkdir ki, son bir neçə gündə həmin göstərici xeyli artıb və qiymətlərin qeydiyyata alındığı tarix ərzində ən yüksək orta göstəricidir.

Amerika Avtomobil Assosiasiyasının məlumatına görə, mənzillərin bahalaşması da bu göstəricinin artmasına şərait yaradıb. İnflyasiya amerikalılar arasında ciddi narahatlıq doğurur və 2022-ci ildə nəzərdə tutulan aralıq seçkilərdə demokratların zərərinə mühüm rol oynaya bilər.

Prezident Bayden cümə axşamı bildirib ki, onun administrasiyası inflyasiyanın artmasına qarşı mübarizə metodları üzərində işi davam etdirir. O qeyd edib ki, belə metodlardan biri bu ayın əvvəlində strateji ehtiyatlar hesabına onlarca milyon barel neftin satılmasıdır.

## Türkmənistanın yeni seçilmiş prezidentinin andiçmə mərasimi martın 19-da keçiriləcək



Türkmənistanın yeni seçilmiş prezidentinin andiçmə mərasimi bu il martın 19-da "Oğuzhan Saray" Kompleksində keçiriləcək.

Bu barədə dövlət başçısı Qurbanqulu Berdiməhəmmədov Nazirlər Kabineti və Dövlət Təhlükəsizlik Şurasının birgə iclasında deyib.

Q.Berdiməhəmmədov qeyd edib ki, andiçmə mərasimindən sonra təntənəli tədbirlər qəbul mərkəzində davam etdiriləcək.

Nazirlər Kabinetinin və Dövlət Təhlükəsizlik Şurasının birgə iclası Türkmənistanda martın 12-nə təyin edilmiş prezident seçkilərinin təşkili məsələlərinə həsr olunub. Ölkədə prezidentlik uğrunda 9 namizəd mübarizə aparır. Ölkədə fəaliyyət göstərən siyasi partiyalardan üçü - Demokrat, Aqrar, Sənayeçilər və Sahibkarlar Partiyası, 6 namizəd isə vətəndaşların təşəbbüs qrupları tərəfindən irəli sürülüb.

Hazırda Türkmənistan prezidenti vəzifəsinə namizədlərin Aşqabadda və ölkənin regionlarında seçicilərlə görüşləri, eləcə də digər təşviqat tədbirləri başa çatıb.

Türkmənistanda və xarici ölkələrdə 2600-dən çox seçki məntəqəsi yaradılıb.

## Ər-Riyadda neft emalı zavoduna dron hücumu olub

Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda "ARAMCO" şirkətinin neftayırma zavoduna dron hücumu nəticəsində yanğın baş verib. AZƏRTAC rəsmi SPA agentliyinə istinadla xəbər verir ki, bu barədə Səudiyyə Ərəbistanının Enerji Nazirliyi məlumat yayıb.

Məlumatda qeyd olunub ki, baş vermiş yanğın məhdudlaşdırılıb, insan tələfatı yoxdur. Bundan başqa, xam neftin nəqlində hər hansı problem yaranmayıb.

Səudiyyə Ərəbistanı bu hücumu pisləyən bəyanat yayıb. Hücumu kimin təşkil etməsi barədə məlumat verməyib.

İki gün əvvəl husi qiyamçıları Yəmən ərazisindən Cizan şəhərinə də dron hücumu həyata keçirmişdilər.

# "Azercell" 2021-ci ildəki fəaliyyət dövrünün hesabatını açıqlayıb

Azərbaycanda ən son texnoloji trendləri tətbiq edərək rəqəmsallaşmanı hər bir istifadəçisinin gündəlik həyat tərzinə çevirməyə can atan "Azercell Telekom" MMC 2021-ci ildə 25 yaşını qeyd etdi.

Azərbaycan vətəndaşlarının ən çox üstünlük verdiyi və 5 milyon abunəçini ətrafına toplayan "Azercell"in yenilənmiş strategiyası şirkəti "Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik!" məqsədinə doğru aparır. Məhz bu məqsədə əsaslanan şirkət öz abunəçilərinin daim artan ehtiyaclarını qarşılamaq və onların gözləntilərini aşmaq üçün istifadədə rahat və qabaqcıl rəqəmsal həlləri ölkədə təqdim edəcək. Şirkət brendinin yeni şüarı - "Sənə yaxın gələcək" innovativ rəqəmsal həllər vasitəsilə insanların həyat keyfiyyətini yaxşılaşdırmaq, təhlükəsizliyi artırmaq və dünyaya inteqrasiya olunmaq kimi ideyaları özündə əks etdirir.




Uzunsürən pandemiyanın səbəb olduğu qlobal iqtisadi resessiyaya baxmayaraq, "Azercell Telekom" ötən ili ciddi nailiyyətlərlə başa vurmağı bacardı. 2021-ci ildə ölkənin mobil kommunikasiya bazarında 51.8% pay sahibi olan Azərbaycanın qeyri-neft sektorunun ən böyük vergi ödəyicilərindən biri olaraq 2021-ci ildə dövlət büdcəsinə 122.7 milyon manat, 25 il ərzində isə ümumilikdə 2.1 milyard manatdan çox vergi ödəyib. Mobil operator Azərbaycanda telekommunikasiyanın inkişafına 2021-ci ildə 44.7 milyon ABŞ dolları, 1996-2021-ci illər ərzində isə 1.7 milyard ABŞ dollarından artıq həcmdə sərmayə yatırıb.

Hələ müharibə dövründə bütün cəbhəboyu ordumuzun ardınca irəliləyən "Azercell"in texniki komandası azad edilmiş tarixi torpaqlarımızda, eləcə də qədim Şuşa şəhərində 4G şəbəkəsini işə salmışdı. Bu fəaliyyət 2021-ci il ərzində də davam etdirilərək artıq işğaldan azad olunmuş torpaqlarımızda "Azercell" şirkətinə məxsus 70-dən artıq radio baza stansiyasının 2G/3G/4G standartları ilə işləməsilə nəticələndi. İndi Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları, İstisu, Hadrut, Suqovuşan qəsəbələri, Xocavənd və Laçın rayonlarına aid bir çox kənd və ətraf ərazilər "Azercell"in mobil şəbəkəsi ilə əhatə olunub.

Hazırda şirkətin coğrafi əhatə dairəsi ölkəmizin işğaldan azad olunmuş əraziləri də daxil olmaqla 94.15% əhali əhatəsi isə 98.70% təşkil edir. Keyfiyyətli və sürətli mobil internet xidmətləri ilə daim öndə olan "Azercell Telekom" il ərzində ölkəmizdə 4G şəbəkəsinin təkmilləşdirilməsi layihəsini uğurla davam etdirib. Ötən il boyu "Azercell"in 4G şəbəkəsinin əhali üzrə əhatəsi dairəsi 85,8%-ə, coğrafi əhatəsi isə 74,5%-ə qədər yüksəlib ki, bu da 2020-ci ilin analoji göstəricilərindən 2% artıqdır. 2021-ci ilin yekunlarına əsasən "Azercell"in 4G şəbəkəsi üzərində çalışan stansiyaların ümumi sayı 3000-ə çatdırılıb. "Azercell" 4G şəbəkəsi üzərindən ötürülən məlumatın həcminin və internet sürətinin 24% yüksəlməsinə nail olub. Belə ki, 2021-ci ilin göstəricilərinə görə Bakı və Abşeron yarımadası üzrə ortalama sürət 51 Mbit/s qədər yüksəlib.

"Azercell" Bakı Metropolitenində rahat və kəsintisiz bağlantı istiqamətdə apardığı işləri yekunlaşdıraraq iki il davam edən layihə nəticəsində metropolitenin bütün 24 stansiyası və tunellərini 4G şəbəkəsi ilə əhatə edib. Beləliklə, "Azercell" abunəçiləri hətta qatarın hərəkətdə olduğu zaman da dayanmadan mobil internet xidmətlərindən yararlanaraq dostları ilə yazışa, videolar izləyə və musiqi dinləyə bilərlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin azad edilmiş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqinin sürətləndirilməsinə dair sərəncamına uyğun olaraq "Azercell" şirkəti bu konsepsiyaların nəzərdə tutduğu qabaqcıl texnologiyaların öz mobil şəbəkəsi üzərindən işə salınması istiqamətində nailiyyətlər əldə etdi. Belə ki, operatror işğaldan azad olunmuş torpaqlarda öz 4G şəbəkəsini sürətlə genişləndirməklə yanaşı, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları üçün əşyaların interneti (IoT) texnologiyasına əsaslanmış, daha az enerji sərfiyyatlı şəbəkə infrastrukturunun sınaqlarını uğurla həyata keçirən ilk operator olub.

İşğaldan azad edilən ərazilərdə aparılan quruculuq işlərinə dəstək məqsədilə "Azercell" şirkəti öz abunəçilərinə "Kabinetim" tətbiqi üzərindən Qarabağ Dirçəliş Fonduna daha rahat və sürətli formada ianə köçürmək imkanı yaradıb. Bundan əlavə, həmin ərazilərdə abunəçilərə ilk müştəri xidmətləri göstərən də məhz "Azercell" olub. Şirkətin Mobil Müştəri Xidmətləri komandasının Şuşaya səfəri zamanı 200-ə yaxın abunəçiyə yerində xidmət göstərilib, 50-dən çox müxtəlif müştəri əməliyyatı həyata keçirilib.

Ötən il istifadəçilərin uzun müddət səbirsizliklə gözlədiyi yeni "Qaliblərin seçimi - 010 prefiksli nömrələr" də Azərbaycanın mobil rabitə bazarına çıxarılıb. Vətən müharibəsindəki şanlı qələbəni bizə yaşadanlara sonsuz hörmətin təcəssümü kimi müharibə veteranı statusuna malik olan bütün vətəndaşlara "Azercell"dən yeni "Veteran Tarifi" təqdim olunub.

Yeni rəqəmsal siyasətini həm istehlakçılar, həm də müxtəlif ölçülü biznes müştəriləri üçün gerçəkləşdirən "Azercell" 2021-ci ildə korporativ abunəçiləri üçün bir sıra yeniliklər həyata keçirib. Belə ki, şirkət ölkənin mobil rabitə bazarında ilk dəfə olaraq Əşyaların İnterneti (IoT) texnologiyasına əsaslanan "Biznesim Nəqliyyat" həllini təqdim edib . Eyni zamanda, "Biznesim Loyallıq" proqram çərçivəsində "Azercell"in korporativ müştəriləri arasında populyarlıq qazanan "Biznesim Klubu" istifadəyə verilib.

"Azercell" abunəçilərinə öz nömrəsinə tam nəzarət etmək imkanı verən "Kabinetim" özünəxidmət tətbiqinin işində də xeyli yeniliklər tətbiq olunub. Nəticədə "Kabinetim" mobil tətbiqini yükləyənlərin sayı 1 milyonu keçib.

2021-ci ildə "Azercell"in həyata keçirdiyi Korporativ Sosial Məsuliyyət layihələrə ümumilikdə 257 min ABŞ dollarından artıq vəsait sərf edilib ki, bu göstərici 25 il ərzində 22 milyon dolları keçib.

2021-ci il ərzində Milli Olimpiya Komitəsinin, Milli Olimpiya və Milli Paralimpiya Komandalarının məğrur tərəfdaşı olan "Azercell Telekom" Azərbaycan idmançılarının XXXII Yay Olimpiya Oyunları və XVI Yay Paralimpiya Oyunlarında iştirakını dəstəkləyib. Şirkətin tərəfdaşlığı ilə ötən il, həm də, ölkəmizdə VI Uşaq Paralimpiya İdman Oyunları baş tutub. 2014-cü ildə "Azercell"in dəstəyilə keçirilən bu yarışlarda 5 idman növü üzrə 120-yə yaxın xüsusi qayğıya ehtiyacı olan uşaq iştirak edib.

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin məğrur tərəfdaşı olan "Azercell Telekom" MMC-nin dəstəyilə informatika üzrə beynəlxalq olimpiadalara hazırlaşan məktəblilərimiz ötən il ərzində dəfələrlə mötəbər bilik yarışlarında yüksək nəticələr əldə ediblər. Məktəblilərimiz informatika fənni üzrə müxtəlif miqyaslı beynəlxalq olimpiadalarda ölkəmizi uğurla təmsil edərək 10 medal qazanıblar.

Mədəni irsə hörmətlə yanaşan "Azercell" şirkəti Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə dahi Azərbaycan şairi və filosofun əsərlərinə aid 100-dən çox parçanı audiokitab formatında tərtib edib. Əsərlər Azərbaycan, türk, ingilis, fransız və rus dillərində qədim simli musiqi alətlərinin müşayiəti altında səsləndirilərək "Bookmate" əlavəsinə yüklənilib. Həmçinin Nizami Gəncəvinin iki məşhur əsəri komiks janrında hazırlanıb. Ötən il həm də xalqımızın vətənpərvərlik və qəhrəmanlıq tarixini təcəssüm etdirən "Koroğlu" dastanı fərqli və rəqəmsal formatda hazırlanaraq "Bookmate" mobil tətbiqinə yüklənilib.

"Azercell"in Səyyar Diş və Göz klinikaları 2021-ci ilin ilk aylarında bütün təhlükəsizlik və gigiyena qaydalarına riayət olunmaqla 400-dən çox aztəminatlı, xüsusi qayğıya ehtiyacı olan vətəndaşlarımıza xidmət göstərib.

"Azercell" torpaqlarımızın azadlığı uğrunda döyüşüb, bizi doğma Qarabağa qovuşduran cəsur şəhidlərimizin ailələrini və qazilərimizi daim diqqət mərkəzində saxlayıb. Şirkətin həyata keçirdiyi "Kiçik Ürəklərdə Böyük Xatirələr" layihəsi çərçivəsində 300-ə yaxın şəhid övladı və onların anaları xüsusi reabilitasiya proqramına cəlb olunub.

"Azercell" şirkətinin öz əməkdaşlarından ibarət "Azercell könüllüləri" xeyriyyə qrupunun təşəbbüsü ilə Azərbaycanın bütün bölgələrini əhatə edən "Novruz payı", "Yeni ildə Könüllülərdən hədiyyə ilə" aksiyaları çərçivəsində Vətən müharibəsi şəhidlərinin ailələrinə, döyüşlərdə yaralanmış qazilərə və onların övladlarına bayram sovqatları və kuponlar təqdim olunub.

Ölkədə peşəkar kadrların inkişaf etdirilməsinə hər zaman xüsusi önəm verən "Azercell" 2021-ci ildə İnsan kapitalının inkişafına təxminən 879 min ABŞ dolları, 1996-2020-ci illər ərzində isə 26.8 milyon ABŞ dolları həcmində vəsait sərf edib.

"Azercell" şirkəti gənclər arasında populyar olan "Tələbə Təqaüdü və Tələbə Təcrübə" proqramlarını da davam etdirib. Layihədə tətbiq olunan son yenilik ondan ibarət olub ki, 2021-ci ildə "Azercell" tələbə adını qazanmış şəhid övladları və vətən uğrunda canını fəda etmiş hərbçilərimizin ali təhsil ocağına daxil olmuş həyat yoldaşlarına da təqaüd ayırıb. Bundan əlavə, Vətən müharibəsində rəşadətlə döyüşüb qayıdan və ölkəmizin müxtəlif şəhərlərində Rabitə və İnformasiya Texnologiyaları sahəsi üzrə təhsil alan 23 tələbə 2021-ci ildə "Azercell"in dəvətilə "Tələbə Təqaüd" proqramına qoşulub.

Fəaliyyət dövrü ərzində tətbiq etdiyi şəffaflıq strategiyasının nəticəsi olaraq ölkənin lider mobil operatoru "Azercell Telekom" 2021-ci ildə növbəti dəfə ISO 37001:2016 "Antikorrupsiya idarəetmə sistemi" standartlarına uyğunluq sertifikatı ilə təltif olunub. ABŞ-ın ən böyük akkreditasiya qurumu olan ANAB (ANSI National Accreditation Board) tərəfindən akkreditə olunmuş Türkiyənin Denetik Uluslararası Belgelendirme ve Gözetim Hizmetleri şirkətinin keçirdiyi sertifikatlaşdırma auditi "Azercell"in antikorrupsiya proqramının bütün tələblərə cavab verdiyini bir daha təsdiq edib.

Şirkətin müxtəlif istiqamətlərdə gərgin fəaliyyəti yerli və beynəlxalq ictimaiyyətin diqqətindən kənarda qalmayıb. "Azercell"in təşəbbüsü ilə hazırlanan və sosial mediada milyonlarla baxış toplayan #QadınDediyin layihəsi Şərqi Avropanın ən böyük yaradıcı festivallarından biri olan "White Square"də "For Bravery" özəl mükafatını alıb.

Ötən il Beynəlxalq Biznes Mükafatları nüfuzlu STEVIE mükafatının qaliblərinə təqdimat mərasimi keçirib. Azərbaycanın lider mobil operatoru "Azercell Telekom"un nailiyyətləri STEVIE Beynəlxalq Biznes Mükafatlarının münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilib. Xatırladaq ki, "Azercell" şirkəti "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası üçün Əşyaların İnterneti (IoT) texnologiyaları əsasında az enerji tələbatlı sensorların tətbiqi üzrə hazırlıq səviyyəsinə görə "İlin ən innovativ şirkəti" nominasiyasında qızıl mükafata layiq görülüb.

# Ölkə ərazisində havanın arabir yağıntılı olacağı proqnozlaşdırılır

Azərbaycanda martın 12-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın arabir yağıntılı olacağı, gündüz tədricən kəsiləcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 3-5°, gündüz 5-7° isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunundan 766 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.




Azərbaycanın rayonlarında havanın arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2-5°, gündüz 6-10° isti, dağlarda gecə 5-10°, gündüz 0-5° şaxta olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-10° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 3-8° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3-8° şaxta, dağlarda 12°-dək şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 4-8° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 2-6° isti, dağlarda gecə 7-9°, gündüz 0-5° şaxta olacağı ehtimal edilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında havanın arabir yağıntılı olacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı, sulu qara keçəcəyi ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 7-11° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında arabir yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3-5°, gündüz 6-9° isti, dağlarda gecə 0-3° şaxta, gündüz 3-5° isti olacaq.


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik**
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

**6 aylıq**
62,40 (altmış iki manat qırx qəpik) manat

**3 aylıq**
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## "Milli Hematologiya və Transfuziologiya Mərkəzi" publik hüquqi şəxs 314000 "Qeyri-maddi aktivlər"maddəsindən yeni lisenziyaların alınması və müddətinin uzadılmasının (xüsusi vəsait hesabına) kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (+99451) 250-70-53 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 10.03.2022-ci il saat 17:00-dan 05.04.2022-ci il saat 10:00-dək qəbul olunur.

Ünvan: Mirəli Qaşqay küçəsi 145; **sales.mhtm@tabib.gov.az**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs tərəfindən 22 oktyabr 2021-ci il tarixdə elan edilmiş Tibb müəssisələrinin istifadəsi üçün tibbi ləvazimat və sərfiyyat materiallarının satın alınmasına dair keçirilmiş açıq tenderin qalibləri Tender komissiyasının qərarına əsasən hər bir mal vahidi üzrə qiymət səmərəliliyi nəzərə alınmaqla "Arash Medical Company" QSC, "Avromed Company" QSC, "Azəri Med" QSC, "Clinic Medical" MMC, "Osterman" MMC, "Paşa-K" Firması, "Referans Pharmaceuticals" MMC və "Medeks" MMC müəyyən olunmuş və 24 fevral 2022-ci il tarixdə 8 (səkkiz) müəssisə ilə satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

# Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Martın 10-u saat 19:45-dən martın 11-i saat 08:35-dək Azərbaycan Ordusunun mövqeləri müxtəlif istiqamətlərdən fasilələrlə atəşə məruz qalıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ordumuzun Füzuli, Xocavənd, Ağdam və Xocalı rayonları istiqamətlərində yerləşən mövqeləri Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən müxtəlif çaplı atıcı silahlardan istifadə edilməklə atəşə tutulub.

Bundan başqa, Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Zərkənd, Aşağı Şorca, Əzizli yaşayış məntəqələrində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Yellicə, Barmaqbinə və Yuxarı Ayrım yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini də atəşə tutub.

Bölmələrimiz tərəfindən həmin istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

Azərbaycan Ordusunun sıralarında şəxsi heyət və texnika baxımından itki yoxdur.

Hazırda bu istiqamətlərdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

***Azərbaycan Dövlət Dəniz Administrasiyası tərəfindən 2019-cu ildə Anar Naib oğlu Zeynalovun adına verilmiş müddətli STCW sertifikatı itdiyi üçün etibarsız sayılır.***

# ALLAH RƏHMƏT ELƏSİN!

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızına anası

**VƏZİRƏ HƏSƏNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Konfederasiyanın vitse-prezidenti, Azərbaycan Mikromaliyyə Assosiasiyasının icraçı direktoru Jalə Hacıyevaya həyat yoldaşı

**MÜŞVİQ HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi Viləşçay Su Anbarı İstismar İdarəsinin rəisi Rusif Kərimova atası

**ŞAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızına anası

**VƏZİRƏ HƏSƏNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızına anası

**VƏZİRƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər

---

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və Aparat işçiləri Azərbaycan Dövlət İqtisad Universitetinin prorektoru Şaiq Əsgərova qardaşı

**ELMAN ƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5685
Sifariş 693
Qiyməti 40 qəpik